

"SƏS" qəzeti mənim üçün ən əziz qəzetdir

## XİN: "ABŞ Dövlət katibinin köməkçisinin səsləndirdiyi fikirlər, sadəcə, məyusluq doğurur"



2

№ 168 (6851)

16 sentyabr 2023-cü il.
Qiyməti 60 qəpik

## İlham Əliyev: "İşğal zamanı ərazilərimiz beynəlxalq terrorçuların hazırlanması üçün istifadə edilib"



2

# Rusiyadan Ermənistana açıq mesaj

*"Bu, artıq başqa dövlət başçılarının başına gəlib"*



8

## "112 qlobal DİM göstəricisindən 81-i üzrə məlumatları Dövlət Statistika Komitəsi hazırlayır"



3

## 18 Sentyabr Milli Musiqi Günüdür




4

## Türk dünyası birliyinə Azərbaycanın töhfəsi



6

## 15 sentyabr: şən və kövrək anlar...



7

## Dünyamızın müdafiə sistemi dağılır: Fəlakət yaxınlaşır?



15

# İlham Əliyev: ”İşğal zamanı ərazilərimiz beynəlxalq terrorçuların hazırlanması üçün istifadə edilib”



**“Ermənistan Respublikası 30 ilə yaxın ölkəmizin 20 faiz torpaqlarını işğal altında saxlamışdır. Fürsətdən istifadə edərək, işğal zamanı və sonrakı mərhələdə Azərbaycanın ədalətli mövqeyini dəstəkləməkdə göstərdikləri prinsipial mövqeyə görə İqtisadi Əməkdaşlıq Təşkilatına (İƏT) üzv ölkələrə minnətdarlığımı bildirmək istəyirəm. Bu dövr ərzində orada insanlıq əleyhinə və hərbi cinayətlər törədilmiş, etnik təmizləmə aparılmış, həmin ərazilərimiz narkotik vasitələrin yetişdirilməsi və daşınması, habelə beynəlxalq terrorçuların hazırlanması üçün istifadə edilmişdir.”**

Bu fikirlər Azərbaycan Prezidenti İlham Əliyevin İƏT-ə üzv dövlətlərin baş prokurorlarının 4-cü iclasının iştirakçılarına ünvanlandığı məktubda yer alıb.

Dövlətimizin başçısı qeyd edib ki, 2020-ci ildə ərazilərimiz işğaldan azad edildikdən sonra Azərbaycan digər çağırışlarla qarşılaşıb. Ölkəmizin şəhər və kəndləri Ermənistan tərəfindən qəsdən dağıdılıb, talan olunub, bütün mədəni və dini abidələr dağıdılıb, məscidlər təhqir olunub, qarət edilib. Birinci Qarabağ müharibəsi və sonrakı dövrlərdə 4 minə yaxın insan itkin düşüb ki, onların taleyi ilə bağlı qarşı tərəf hələ də heç bir məlumat vermir. Ermənistan işğal etdiyi ərazilərimizdə bir milyona yaxın mina basdırıb, urbisid, kultursid və ekosid cinayətləri törədib. İşğala son qoyulan kimi dövlətimiz bütün gücünü səfərbər edərək bu ərazilərdə geniş quruculuq və bərpa işlərinə, erməni vandalizminin nəticələrini aradan qaldırmağa başlayıb.

Müstəqilliyini bərpa etdikdən sonra Azərbaycanın üzvü olduğu ilk təşkilatlardan birinin də İqtisadi Əməkdaşlıq Təşkilatı olduğunu qeyd edən Prezident İlham Əliyev İƏT-in fəal üzvü kimi təşkilata üzv dövlətlərlə dostluq və qarşılıqlı hörmətə əsaslanan əməkdaşlığımızın beynəlxalq platformalar çərçivəsində də uğurla inkişaf etməsini sevindirici hal adlandırıb.

”Hər bir dövlətdə xalqın rifahının təmin edilməsini şərtləndirən iqtisadi inkişaf və hüquq qaydasının mövcudluğudur. Cinayətkarlıq qeyd olunan amillərə ciddi təhlükə olmaqla beynəlxalq səviyyədə mübarizənin aparılmasını tələb edən fenomendir. Bu sahədə, xüsusilə transmilli cinayətkarlıqla mübarizədə prokurorluq orqanlarının qarşılıqlı əməkdaşlıq şəraitində fəaliyyət göstərməsi mühüm əhəmiyyət kəsb edir.”

Məktubda, həmçinin qeyd edilib ki, qlobal və regional təhdidlərin, islamofobiya meyillərinin artdığı bir zamanda İƏT-ə üzv dövlətlərin prokurorlarının qarşısında yeni vəzifələr durur. Narkotiklərin qanunsuz dövriyyəsi, insan alveri, korrupsiya, kibercinayətkarlıq, çirkli pulların yuyulması və sair cinayətlər beynəlxalq terrorçuluğun maliyyə mənbəyi olmaqla bəşəriyyətin gələcəyinə böyük təhlükə yaradır.

Dövlətimizin başçısı əmin olduğunu bildirib ki, vacib məsələlərin müzakirəsi iştirakçılara beynəlxalq təcrübədən faydalanmaq imkanı verməklə insan hüquqlarının müdafiəsi və iqtisadiyyatın inkişafı üçün münbit şəraitin yaradılması istiqamətində əməkdaşlığı daha da möhkəmləndirəcək.

”Hesab edirəm ki, ölkəmizin İƏT-də sədrliyi dönəmində üzv dövlətlərin baş prokurorlarının bugünkü iclası regionumuzda insan hüquq və azadlıqlarının etibarlı müdafiəsinə, cinayətkarlığın bütün formalarına qarşı mübarizədə səylərimizin birləşdirilməsinə və qarşılıqlı əməkdaşlığın daha səmərəli həyata keçirilməsinə mühüm töhfə verəcək”, - deyə məktubda vurğulanıb.

# XİN: ”ABŞ Dövlət katibinin köməkçisinin səsləndirdiyi fikirlər, sadəcə, məyusluq doğurur”

“ABŞ Dövlət katibinin Avropa və Avrasiya məsələləri üzrə köməkçisi vəzifələrini icra edən Yuri Kimin səsləndirdiyi, ümumiyyətlə, postmünaqişə dövründə bölgədə mövcud vəziyyət və reallıqları əks etdirməyən fikirləri, sadəcə, məyusluq doğurur.” Bu sözlər Xarici İşlər Nazirliyinin (XİN) mətbuat katibi Ayxan Hacızadənin ABŞ Senatında Yuri Kimin iştirakı ilə keçirilmiş dinləmələrdə səsləndirilən iddialara dair şərhində yer alıb.



A.Hacızadə bildirib ki, ilk növbədə, qeyd olunan dinləmələrin təşəbbüskarının və təşkilatçısının ölkəmizə qarşı ənənəvi düşmən mövqeyi ilə seçilən ermənipərəst senator Robert Menendezin olduğu məlumdur. Sözügedən senatora qarşı korrupsiya ittihamlarının mövcud olduğu və istintaq prosesinin aparıldığı bir dövrdə bu şəxsin hələ də erməni diasporunun radikal nümayəndələrinin saxta iddialarını əsas götürməklə Azərbaycana qarşı fəaliyyətlə məşğul olması onun üçün siyasi etik qaydaların yad məfhum olduğunu növbəti dəfə sübut edir.

Bu fikirlər 2023-cü il sentyabrın 1-də Azərbaycan Prezidenti İlham Əliyevlə ABŞ Dövlət katibi Antoni Blinken arasında təmaslar zamanı Ağdam-Xankəndi və Laçın-Xankəndi yollarından eyni vaxtda istifadə məsələsində razılaşma ilə ziddiyyət təşkil etməklə yanaşı, təssüf ki, özündə Ermənistanın Azərbaycana qarşı bütün dünyada qarayaxma kampaniyasının elementlərini ehtiva edir. ABŞ tərəfinin də vasitəçiliyi ilə icra edilməsi nəzərdə tutulan bu razılaşmanın Ermənistan və onun yaratdığı qondarma rejim tərəfindən pozulması, ”blokada” və ”humanitar vəziyyət” ilə bağlı iddiaların əsassız olduğu ABŞ tərəfinə yaxşı məlumdur.

”Ermənistan ilə Azərbaycan arasında müharibənin bitmədiyini iddia edən xanım Kimə xatırlatmaq istərdik ki, 2020-ci il noyabrın 10-da imzalanmış üçtərəfli Bəyanatdan sonra tərəfimizdən hər iki dövlətin ərazi bütövlüyü və suverenliyi əsasında qarşı tərəfə sülh təklif olunub. Azərbaycanın təşəbbüsü ilə başlayan, beynəlxalq tərəfdaşların, o cümlədən ABŞ-ın dəstəyi ilə sülh müqaviləsi ətrafında ikitərəfli danışıqlar prosesinin mövcudluğu postmüharibə və postmünaqişə dövrünün təməl prosesidir”.

Təəssüf ki, müharibə və münaqişə bitsə də, bitməyən və bölgədə sülhə, sabitliyə əngəl törədən Ermənistanın 30 ilə yaxın işğal dövründə olduğu kimi, yenə də danışıqları imitasiya etməsi və davamlı hərbi-siyasi təxribatlar ilə məşğul olmasıdır. Bu baxımdan 30 illik münaqişədən sonra yaranmış tarixi fürsətin danılması yerinə, Ermənistanın törətdiyi təxribatların dayandırılmasının, ən əsası isə Azərbaycan ərazilərindən hələ də çıxarılmayan erməni silahlı qüvvələrinin ərazilərimizi dərhal tərk etməsinin tələb olunmasının vacib və ədalətli olduğuna inanır, ABŞ tərəfini bu mövqedən çıxış etməyə çağırırıq.

Qarabağ bölgəsində yaşayan erməni sakinlərlə bağlı ”Dağlıq Qarabağın erməni xalqı”nın hüquq və təhlükəsizliklərinin sülh müqaviləsində öz əksini tapmasına istinad edilməsi, özündə Ermənistanın məqsədyönlü şəkildə ərazilərimizdə separatizmi təşviq məqsədilə istifadə etdiyi terminologiyanı ehtiva etməklə ərazi bütövlüyümüz və suverenliyimizə ziddir. Eyni zamanda, bu istinad Ermənistanın etnik təmizləmə və soyqırımı siyasəti nəticəsində həmin bölgədən didərgin düşən azərbaycanlıların da hüquqlarına hörmətsizlikdir. Hazırda Qarabağ bölgəsində yaşayan erməni sakinlərin heç də həmin bölgənin əhalisinin bütün seqmentlərini təmsil etmədiyini qarşı tərəfə xatırlatmaq istərdik.

”Hərbi hücum” iddiası ilə bağlı isə Ermənistandan fərqli olaraq, Azərbaycanın heç vaxt mülki əhaliyə qarşı güc tətbiq etmədiyini vurğulayaraq, əksinə, milli səviyyədə erməni sakinlərimizin cəmiyyətimizə reinteqrasiyası sahəsində tədbirlərin görüldüyü, bu istiqamətdə Ermənistan və onun qondarma qurumu tərəfindən törədilən maneələrə baxmayaraq, qərarlı olduğumuzu bildiririk. Reinteqrasiya prosesi ölkəmizin daxili məsələsidir və daxili işlərimizə müdaxilə qəbulolunmazdır.

ABŞ tərəfinin timsalında beynəlxalq ictimaiyyətə, Ermənistanın qarayaxma kampaniyasına uymayaraq, bölgədə qeyri-sabitliyə töhfə verən bu kimi addımların bir parçası olmamağı tövsiyə edirik”, - deyə Azərbaycan XİN-in rəsmisi vurğulayıb.

## ”Azərbaycanda DİM sahəsində 119 göstərici üzrə məlumatların mənbəyi müəyyənləşdirilib”

Azərbaycanda Dayanıqlı İnkişaf Məqsədləri (DİM) sahəsində milli prioritet kimi seçilmiş 119 göstərici üzrə məlumatların mənbəyi və onların hazır olma müddəti müəyyənləşdirilib, rəsmi statistikada mövcud olmayan göstəricilər üzrə məlumatların aidiyyatı dövlət orqanları ilə birgə əldə edilməsi üçün müəyyən işlər görülüb, DİM statistikanın təşkili ilə bağlı digər tədbirlər həyata keçirilib. SİA xəbər verir ki, bunu Dövlət Statistika Komitəsinin sədri Tahir Budaqov Ümummilli Lider Heydər Əliyevin 100 illik yubileyinə həsr edilmiş ”Dayanıqlı inkişaf. Hesabatlılıq. Şəffaflıq” mövzusunda beynəlxalq elmi-praktik konfransda deyib.

”Bütün bunların nəticəsində bu ilin əvvəlinə olan vəziyyətə görə, qlobal göstəricilər sistemində nəzərdə tutulmuş 248 göstəricidən 112-si, o cümlədən milli prioritet kimi müəyyənləşdirilmiş 119 göstəricidən 86-sı, yəni 72 %-i üzrə məlumatların toplanılmasına nail olunub. 2018-ci ildən başlayaraq hər il DİM statistik icmal adlı məcmuənin nəşr edilməsi, 2019-cu ildə BMT-nin İnkişaf Proqramının Azərbaycandakı nümayəndəliyi ilə birgə DİM-ə nail olma vəziyyətinin monitorinqi və geniş istifadəçi auditoriyasının məlumatlandırılması məqsədilə Azərbaycanın DİM üzrə milli məlumatlandırma portalının yaradılması, DİM göstəriciləri ilə bağlı metodoloji bazanın Azərbaycan dilində formalaşdırılması məqsədilə zəruri tərcümə işlərinin aparılması, DİM göstəriciləri üzrə məlumatların beynəxalq məlumatlar strukturuna uyğun formatda hazırlanması, portalda yerləşdirilməsi və digər tədbirlər DİM statistikası sahəsində statistik potensialın artırılmasında mühüm rol oynayıb”, - deyə T. Budaqov əlavə edib.



Onun sözlərinə görə, hazırda 112 qlobal DİM göstəricisindən 81-i üzrə məlumatları Dövlət Statistika Komitəsi, qalan 31-i üzrə məlumatları isə digər dövlət qurumları hazırlayır.

O bildirib ki, bu məlumatlar Ekologiya və Təbii Sərvətlər, İqtisadiyyat, Kənd Təsərrüfatı, Fövqəladə Hallar, Ədliyyə, Daxili İşlər, Xarici İşlər, Səhiyyə, Rəqəmsal İnkişaf və Nəqliyyat nazirlikləri, Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsi, Baş Prokurorluq və digər dövlət qurumları tərəfindən hazırlanıb Dövlət Statistika Komitəsinə təqdim edilir:

”Bir məsələni də qeyd edim ki, DİM göstəriciləri üzrə məlumat istehsalında əsasən ənənəvi məlumat mənbələrindən istifadə olunsa da, hazırda beynəlxalq aləmdə məlumatların alternativ mənbələr əsasında toplanılması praktikası getdikcə genişlənir və inkişaf etmiş bir çox ölkələrdə bəzi DİM göstəricilərinin monitorinqində peyk məlumatlarından istifadə edilir. Son 2 ildə ölkəmizdə də belə təcrübə tətbiq edilib. 2021-ci ildə ”Azərkosmos”la apardığımız işlər nəticəsində 15.4.2-ci dayanıqlı inkişaf məqsədi, yəni dağların bitki örtüyü indeksi üzrə məlumatların bu yolla əldə olunması təmin edilib”.

# Azərbaycan-Türkiyə qardaşlığı əbədidir!

## YAP nümayəndələri Şəhidlər Xiyabanını və "Türk şəhidliyi" abidəsini ziyarət ediblər









Bakının daşnak-bolşevik işğalından azad edilməsinin 105-ci ildönümü münasibətilə sentyabrın 15-də Yeni Azərbaycan Partiyasının (YAP) nümayəndələri Şəhidlər Xiyabanını ziyarət ediblər. Azərbaycanın azadlığı və müstəqilliyi uğrunda mübarizədə canlarını qurban vermiş qəhrəman Vətən övladlarının əziz xatirəsi ehtiramla yad edilib, məzarları üzərinə tər güllər qoyulub.

Daha sonra YAP nümayəndələri Bakıdakı "Türk şəhidliyi" abidəsini ziyarət ediblər. Azərbaycanın istiqlaliyyəti uğrunda canlarından keçən, Azərbaycan-Türkiyə qardaşlığının əbədiliyini, sarsılmazlığını əks etdirən bu məzarlıqda uyuyan qəhrəman və fədakar türk qardaşlarımızın əziz xatirəsi anılıb, abidənin önünə gül dəstələri düzülüb.



## "112 qlobal DİM göstəricisindən 81-i üzrə məlumatları Dövlət Statistika Komitəsi hazırlayır"

***Hazırda 112 qlobal Dayanıqlı İnkişaf Məqsədləri (DİM) göstəricisindən 81-i üzrə məlumatları Dövlət Statistika Komitəsi, qalan 31-i üzrə məlumatları isə digər dövlət qurumları hazırlayır. SİA xəbər verir ki, bu barədə Ümummilli Lider Heydər Əliyevin 100 illik yubileyinə həsr edilmiş "Dayanıqlı inkişaf. Hesabatlılıq. Şəffaflıq" mövzusunda beynəlxalq elmi-praktik konfransda Dövlət Statistika Komitəsinin sədri Tahir Budaqov deyib.***

"Bu məlumatlar Ekologiya və Təbii Sərvətlər, İqtisadiyyat, Kənd Təsərrüfatı, Fövqəladə Hallar, Ədliyyə, Daxili İşlər, Xarici İşlər, Səhiyyə, Rəqəmsal İnkişaf və Nəqliyyat nazirlikləri, Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsi, Baş Prokurorluq və digər dövlət qurumları tərəfindən hazırlanaraq Dövlət Statistika Komitəsinə təqdim edilir. DİM göstəriciləri üzrə məlumat istehsalında əsasən ənənəvi məlumat mənbələrindən istifadə olunsa da, hazırda beynəlxalq aləmdə məlumatların alternativ mənbələr əsasında toplanılması praktikası getdikcə genişlənir və inkişaf etmiş bir çox ölkələrdə bəzi DİM göstəricilərinin monitorinqində peyk məlumatlarından istifadə edilir. Son 2 ildə ölkəmizdə də belə təcrübə tətbiq edilib. 2021-ci ildə "Azərkosmos"la aparılan işlər nəticəsində 15.4.2-ci dayanıqlı inkişaf məqsədi, yəni dağların bitki örtüyü indeksi üzrə məlumatların bu yolla əldə olunması təmin edilib", - deyə T.Budaqov qeyd edib.

# Dumanın komitə sədri: "İrəvan özü Qarabağı Azərbaycan ərazisi kimi tanıyır, amma..."

***Dövlət Dumasının MDB işləri, Avrasiya inteqrasiyası və həmvətənlərlə əlaqələr komitəsinin sədri Leonid Kalaşnikov "Moskva-Baku" portalına müsahibəsində Ermənistanın Moskvanı "boykot etməsi" fonunda Ermənistan-Azərbaycan münaqişəsinin həlli perspektivlərini dəyərləndirib. Müsahibəni oxucularımıza təqdim edirik.***

***- Leonid İvanoviç, indi Rusiya-Ermənistan münasibətlərində gördüklərimizi necə xarakterizə edə bilərsiniz? Bu qeyri-adi vəziyyətə necə gəlindi?***

- Əslində Ermənistanda indiki rəhbərlik hakimiyyətə gələn andan hadisələrin məhz belə inkişafını gözləyirdik. Onların "Soros" haqqında necə danışdıqlarını və bu komanda hakimiyyətə gəlməzdən əvvəl Rusiya tərkibli strukturları tərk etmək zərurəti barədə bəyanatlar verdiklərini xatırlayırıq. 2020-ci ilin yazında Ermənistanda insanlar küçələrə çıxanda Volodin məni hamı ilə danışmaq üçün ora göndərdi. Mən Nikol Paşinyanla da danışdım. Ondan həmin vaxt verdiyi açıqlamaları soruşdum. O zaman onun bütün bəyanatların siyasi mübarizənin qızğın çağında olması ilə bağlı cavabı məni qane etdi. Eyni zamanda, xatırladığımız kimi, baş nazirin rəhbərlik etdiyi hərəkat "Elk" adlanırdı, bu da rus dilinə tərcümədə "Çıxış" deməkdir. Və bu, başqa şeylərlə yanaşı, rusiyayönlü strukturlardan- Aİİ-dən, KTMT-dən çıxmaq kimi şərh edildi.

Bəli, yəqin ki, bu komandanın hakimiyyətdə olduğu dövrdə Qərbə doğru müəyyən sapmaları, digər məsələlərlə yanaşı, Fransa və ABŞ-da erməni diasporunun olması ilə də başa düşmək mümkün idi. Amma bu gün Paşinyan daha dərinə enib ki, bu da dövlət başçısı üçün qəbuledilməzdir. Bu isə məni belə fikirlərə vadar edir: bir tərəfdən Ermənistanın indiki baş naziri hakimiyyətdə olduğu 5 il ərzində həqiqətən də yetkinləşib və siyasi reallıqları dərk edən liderə çevrilib, digər tərəfdən, bu gün biz reallıqda bütün bunları görürük. Belə görünür ki, narahatlıqlarımız boşuna deyildi. Rusiyanın öz problemlərinin olduğu şəraitdən istifadə edib onu Zaqafqaziyada vəziyyətin inkişafı ilə məşğul olmaqdan yayındırmağa çalışırlar.




Mənim qəti əminliyim qalır ki, Ermənistan-Azərbaycan nizamlanmasında qalan bütün problemlər əvvəlki kimi 3 qonşu- Rusiya, Azərbaycan və Ermənistan tərəfindən həll edilməlidir. Əgər regiondan kənar oyunçular- ABŞ və Avropa İttifaqı prosesə müdaxilə edərsə, problem gözləyin. Biz indi bütün bunları öz gözlərimizlə görürük: Ermənistan ərazisində erməni-amerikan təlimləri, qarşıdan gələn Roma Statutunun ratifikasiyası, Rusiyanı təhqir etməyə cəhdlər.

Ermənistan hakimiyyəti son vaxtlar ölkədə yaranan müxtəlif problemlərə görə Rusiyanı günahlandırmağa çalışır. Bunlar İrəvanın tezisləridir ki, deyirlər, Qarabağ onların deyil, əslində Rusiyanın problemidir. Halbuki, onlar Azərbaycanın ərazi bütövlüyünü tanıyıblar, amma Ermənistan nədənsə qane olmayıb, bizə iddialar irəli sürür. Baxmayaraq ki, Azərbaycan Qarabağ ətrafındakı vəziyyətin öhdəsindən gəlməyə hazırdır və qadirdir.

Təbii ki, biz qonşu, region ölkəsi kimi nəhayət vəziyyəti başa düşməyə kömək etmək istərdik. Bunlara İrəvanın oradakı rus sülhməramlılarının "effektiv olmadığı" barədə müntəzəm bəyanatları, Qarabağda Qərb sülhməramlılarının yerləşdirilməsinin zəruriliyi ilə bağlı müzakirələr də aiddir. Azərbaycan onları ora buraxmayacaq. İrəvanın özü Qarabağı Azərbaycan ərazisi kimi tanıyıb, bəs niyə Ermənistan tərəfi bütün problemləri daim Rusiyanın üstünə yıxmaq istəyir? Bütün bunlar əvvəllər də olub. Dünən Paşinyan bildirib ki, Ukraynadakı vəziyyətdən sonra Ermənistan təhlükəsizlik baxımından Rusiyaya arxalana bilməz.

Bu komandanın 5 il əvvəl hakimiyyətə gəlməsinin necə başa çatacağı mənə aydın idi. Düşünürəm ki, biz bu gün Amerikanın o vaxt, 5 il əvvəl qarşısına qoyduğu və məqsədi Cənubi Qafqazda sabitliyi pozmaq olan planın həyata keçirildiyini görürük. Görünür, uyğun anı gözləyirdilər. Bəli, vəziyyət çətindir. Bütün bunlar öz ölkəsinin maraqlarını deyil, Qərbin maraqlarını rəhbər tutan bəzi erməni siyasətçilərinin əli ilə həyata keçirilir.

***- Rusiya prezidenti bu yaxınlarda Şərq İqtisadi Forumunda bəyan etdi ki, İrəvanın özü Qarabağı Azərbaycan ərazisi kimi tanıyıb. Bu, gələcək nizamlanma üçün nə deməkdir və indi hansı perspektivlər var?***

- Bu, məhz prezidentin dediyi deməkdir. İrəvanın kifayət qədər hiyləgər mövqeyi var: biz Azərbaycanın ərazi bütövlüyünü tanıdıq, eyni zamanda heç kimi Qarabağa buraxmırıq, humanitar yardımın öz seçdiyimiz şəkildə keçməsinə icazə veririk. Eyni zamanda Qarabağda da insanlar aclıqdan ölürlər. Ancaq Rusiya öz bəyanatlarına görə qərar verməlidir. Bu, məncə, kifayət qədər böyük təxribatçıdır.

***- Xankəndinə humanitar yardımlar artıq göndərilir... Amma separatçılar özləri bunu istəmirlər...***

-Hər hansı problem olarsa, lazım gələrsə, Azərbaycan özü də Rusiyaya üz tutacaq... Və biz onları həll edəcəyik. Millətlərarası problemlər həmişə çətin olur. Şübhəsiz ki, indi bizim gördüyümüz hər şey Amerika planı çərçivəsindədir.

***- Üç ildir ki, Rusiya, Azərbaycan və Ermənistan liderlərinin üçtərəfli bəyanatının bəndləri yerinə yetirilmir...***

- Yerinə yetirilmədi. İndi maraqlı tərəflər Rusiyanın iştirakı ilə münaqişəli situasiyanı gözləyirlər və Zaqafqaziyada vəziyyəti mürəkkəbləşdirməyə çalışırlar. Dostlar necə deyərlər, çətin gündə yaranır...

*Tərcümə - Elçin Bayramlı*

# 18 Sentyabr Milli Musiqi Günüdür

Bu gün Azərbaycan bütün dünyaya öz musiqisi ilə səs salıb. Sərhədsiz dünyaları aşan Azərbaycan musiqisini belə bəşəri edən böyük simaları, dahi sənətkarlarıdır. Milli və klassik musiqimizin Xan Şuşinski, Cabbar Qaryağdıoğlu, Rəşid Behbudov kimi böyük klassikləri milli irsimizə iz salaraq sənət tariximizi zənginləşdirməklə yanaşı, onun dünyada tanınmasında da rol oynamışlar. Böyük sənətkarlar sırasında adı dünyada tanınan dahi bəstəkar Üzeyir Hacıbəylinini bəşər musiqi xəzinəsinə bəxş etdiyi nadir nümunələr böyük məhəbbətlə qarşılanır. Qeyri-adi istedadı ilə tanınan Üzeyir Hacıbəyli yaradıcılığı yüksək qiymətləndirilir. Əbəs yerə deyil ki, sentyabrın 18-də ölkəmizdə Üzeyir Musiqi Günü qeyd olunur.




1995-ci ildə həmin gün dövlət statusu alır. Ümummilli Lider Heydər Əliyevin Sərəncamı ilə hər il 18 Sentyabr Üzeyir Musiqi Günü kimi qeyd olunmağa başlandı. Dünya musiqi xəzinəsinə parlaq incilər bəxş edən Üzeyir Hacıbəyli Azərbaycanda peşəkar musiqinin banisidir, bəstəkarlıq məktəbinin, musiqili komediya janrının yaradıcısıdır, Şərqdə operanın, operettanın əsasını qoyub, dövlət xorunu, simfonik orkestri yaradıb, dünya musiqi xəzinəsini ölümsüz əsərləri ilə zənginləşdirib. Dahi bəstəkar Azərbaycan Dövlət Himninin müəllifidir. Bu gün Azərbaycan bayrağı, məhz həmin himnin sədaları altında dünyanın ən mötəbər salonlarında ucalır, həmçinin, tədbirlər bu himnin sədaları altında başlayır. Belə bir zəngin irsin müəllifinə çevrilən Üzeyir Hacıbəylini doğum günündə Azərbaycanda musiqi günü keçirilir. Üzeyir dünyası xatırlanır və vərəqlənir. Belə bir irsin yaradıcısı böyük bir sevgi ilə yad olunur. Üzeyir Musiqi Günü münasibətilə respublikamızda bir çox konsertlər, tədbirlər, sərgilər təşkil olunur. Bu il də müxtəlif səpgili tədbirlər keçirilir və bu davam etdirilir.

Ölkəmizdə Üzeyir Musiqi Günlərinin ənənə halını alması xalqımızın qədirbilənliyidir. Həmin gün ölkəmizin hər yerində bu münasibətlə belə bir təntənəni yaşadan Üzeyir Hacıbəyli sənət və həyat yolunun məsafəsində bu ömrün yazılmış maraqlı səhifələrini oxuyuruq. Kənd mirzəsi ailəsində doğulmuş sənətkarın daim sənətə doğru olan addımları onun dünyaşöhrətli bir sənətkar kimi yetişməsinə səbəb olmuşdur. Şuşanın zəngin musiqi-ifaçılıq ənənələri Hacıbəylinin musiqi tərbiyəsinə müstəsna təsir göstərmişdir. Onun ilk müəllimi Azərbaycan musiqisinin gözəl bilicisi, dayısı A.Əliverdibəyov olmuşdur. O, 1899-1904-cü illərdə Qori Müəllimlər Seminariyasında təhsil almışdır. Bu bəstəkarın dünyagörüşünün formalaşmasında böyük rol oynamışdır. Hacıbəyli seminariya illərində qabaqcıl dünya mədəniyyəti ilə yaxından tanış olmuşdur. O, burada Avropa musiqi klassiklərinin əsərlərini mənimsəmiş, skripka və baritonda çalmağı öyrənmiş, xalq mahnı nümunələrini nota köçürmüşdür. Seminariyanı bitirdikdən sonra Hacıbəyli 1904-cü ildə Cəbrayıl qəzasının Hadrut kəndinə müəllim təyin edilmişdir.

## MUSİQİ TARİXİMİZDƏ KÖKLÜ DÖNÜŞ YARATMIŞ DAHİ BƏSTƏKAR

Ü.Hacıbəyli Rusiyada 1905-1907-ci illər inqilabı ərəfəsində Bakıya gəlmiş, Bibiheybətdə, sonralar isə "Səadət" məktəbində dərs demiş, 1907-ci ildə Bakıda Azərbaycan türkcəsində "Hesab məsələləri" və "Mətbuatda istifadə olunan siyasi, hüquqi, iqtisadi və əsgəri sözlərin türki-rusi və rusi-türki lüğəti"ni nəşr etdirmişdir. Hacıbəyli bədii yaradıcılığa publisistika ilə başlamışdır. O, "Kaspi", "Həyat", "İrşad", "Tərəqqi", "Həqiqət", "İqbal", "Yeni İqbal" qəzetlərində və "Molla Nəsrəddin" jurnalında "Ordan-burdan", "O yan-bu yan" və s. başlıqlar altında "Ü", "Filankəs", "Behmankəs" və s. gizli imzalarla dövrün mühüm ictimai-siyasi, maarifçilik məsələlərinə dair çoxlu məqalə, felyeton və satirik miniatürlər dərc etdirmişdir.

Hacıbəylinin 1908-ci il yanvarın 12-də Bakıda Hacı Zeynalabdin Tağıyevin teatrında göstərilən "Leyli və Məcnun" operası ilə təkcə Azərbaycanda deyil, bütün müsəlman Şərqində opera sənətinin əsası qoyulmuşdur. Hacıbəyli operanın librettosunu Füzulinin eyniadlı poeması əsasında yazmışdır. Hacıbəyli 1909-1915-ci illərdə bir-birinin ardınca "Şeyx Sənan", "Rüstəm və Söhrab", "Şah Abbas və Xurşud banu", "Əsli və Kərəm", "Harun və Leyla" muğam-operaların librettosunu xalq dastanları və rəvayətlər, Firdovsinin "Şahnamə" əsərinin motivləri əsasında yazmışdır. O, "Leyli və Məcnun"dakı üslub xüsusiyyətlərini və estetik sənət prinsiplərini sonrakı operalarında da davam etdirmişdir. Ü.Hacıbəyli 1911-ci ildə musiqi təhsilini artırmaq üçün Moskvaya getmiş, həmin il burada filarmonik cəmiyyətin musiqi kurslarında, 1913-cü ildə isə Peterburq Konservatoriyasında oxumuşdur. Peterburq dövrü Hacıbəylinin yaradıcılığında mühüm rol oynamış, o, "Arşın mal alan" musiqili komediyasını, məhz burada yaratmışdır. Hacıbəyli 1921-ci ildə Bakıda Azərbaycanlı tələbələr üçün ilk musiqi məktəbini - Azərbaycan Dövlət Türk Musiqi Məktəbini təşkil etmişdir. Üzeyir bəy Azərbaycan musiqisində köklü dönüş yaratmış dahi bəstəkardır. Azərbaycan və ümumiyyətlə, Şərq musiqisinin gələcək inkişaf perspektivlərini, estetik prinsiplərini müəyyənləşdirmişdir. Ü.Hacıbəyli həm də böyük musiqişünasalim idi. O, müasir Azərbaycan elmi musiqişünaslığının əsasını qoymuş, musiqiyə dair çoxlu məqalələr yazmış və tədqiqatlar aparmışdır. Hacıbəylinin "Arşın mal alan" musiqili komediyası ingilis, alman, Çin, ərəb, fars, polyak, Ukrayna, belarus, gürcü və s. dillərə tərcümə edilmişdir. YUNESKO-nun görkəmli şəxsiyyətlərin ildönümü və 1985-ci ilin mühüm hadisələri təqviminə əsasən, Ü.Hacıbəyli yubileyi beynəlxalq miqyasda da qeyd edilmişdir.

## 44 GÜNLÜK MÜHARİBƏ ZƏFƏRİ BİZİ MUSİQİ BEŞİYİMİZƏ QOVUŞDURDU

Bu gün 30 ilə yaxın bir zamanda işğal altında olan torpaqlarımız azad olunmuş və böyük sənətkarların da ruhu azad nəfəs alır. 1985-ci ildə Üzeyir Hacıbəylinin 100 illik yubileyi münasibətilə Şuşada bəstəkarın heykəli ucaldılmışdı. Heykəltəraş Əhməd Salikov tərəfindən hazırlanan abidə 1992-ci ildə Birinci Qarabağ müharibəsi zamanı erməni vandalizminə məruz qalaraq tamamilə məhv edildi. 44 günlük Vətən müharibəsindən sonra işğaldan azad olunan ərazilərimizdə aparılan abadlıq-quruculuq işləri çərçivəsində tarixi-dini abidələrimiz, tarixi şəxsiyyətlərin ev muzeyləri və s. təmir və bərpa olunur. Bu sırada Azərbaycan Prezidenti İlham Əliyevin tapşırığına uyğun olaraq bəstəkarın yeni heykəli hazırlandı və heykəlin modeli qalmadığından yeni abidə o dövrün mətbuatında dərc olunan və arxivdə saxlanılan fotolar əsasında yaradıldı. Heydər Əliyev Fondunun dəstəyi ilə bürüncdən hazırlanan heykəl Şuşa şəhərində öz əvvəlki yerində ucaldılıb. Ermənistan Silahlı Qüvvələrinin 1992-ci ildə Şuşanı işğal edərkən Üzeyir Hacıbəyli, Xurşidbanu Natəvan və Bülbülün güllələnmiş heykəlləri bu gün artıq Şuşaya qaytarılıb. "Güllələnmiş heykəllər" Azərbaycan Prezidenti İlham Əliyevin səfəri zamanı Şuşaya aparıldı və dövlət başçısı heykəllərin açılışında iştirak etmişdir.

Bundan əlavə, 44 günlük Vətən müharibəsində Ali Baş Komandanın qətiyyəti, Ordumuzun şücaəti nəticəsində tarixi ədalət bərpa edildikdən sonra Azərbaycan Respublikası Prezidentinin müvafiq Sərəncamı ilə Şuşa şəhərinin Azərbaycanın mədəniyyət paytaxtı elan olunması nəzərə alınaraq, ötənilki festivalın ilk konsertlərindən biri də, məhz Şuşa şəhərində keçirildi. Eyni zamanda, sayca XIII olan bu festivalın proqramında Gəncə və Ağdamda tədbirlər təşkil olundu. Festival çərçivəsində həmçinin ilk dəfə olaraq "Üzeyir sənətinin gənclik sədaları" adı altında yeni proqrama start verildi və gənclərə böyük səhnədə özlərini nümayiş etdirməyə şans yaradıldı. Bu il də ənənəvi olaraq Azərbaycan professional musiqi sənətinin banisi Üzeyir Hacıbəylinin dünyaya gəldiyi 18 sentyabr ölkəmizdə ənənəvi olaraq Milli Musiqi Günü kimi təntənə ilə qeyd olunacaq. Milli Musiqi Günü münasibətilə sentyabrın 18-i saat 15:00-da Beynəlxalq Muğam Mərkəzində konsert proqramı təşkil ediləcək. Beynəlxalq Muğam Mərkəzindən həmin gün BMM-də "Açıq qapı" elan edilib və konsertə giriş sərbəstdir.

Sentyabrın 16-da Azərbaycan Milli Xalça Muzeyində "Xalçalarda musiqi" adlı sərgi açılacaq və uşaqlar üçün konsert proqramı təşkil olunacaq. Sərgidə muzeyin kolleksiyasından musiqi sənəti ilə əlaqəli 11 ədəd zəngin kompozisiyalı portret və süjetli xalçalar, qobelenlər nümayiş etdiriləcək. Bunlar Xalq rəssamları Tahir Salahov və Eldar Mikayılzadənin müəllifi olduqları görkəmli bəstəkarlar Üzeyir Hacıbəyli, Qara Qarayev və Dmitri Şostakoviçə həsr olunmuş portret xalçaları, xalçaçı-rəssamlar Gülmurad Bəbirovun, Bəsti Şərifin, rəssamlar Pavel Kuzmenko, Rimma Eminova və Faiq İbrahimovun maraqlı süjet həllinə malik əsərləridir. Miniatür və realistik üslubda bədii-texniki cəhətdən mükəmməl işlənmiş bu əsərlərdə klassik və xalq musiqisinin, muğam və milli rəqs sənətinin, musiqi alətlərimizin xalça naxışları ilə mükəmməl ahəngi öz əksini tapıb.

Milli Musiqi Günü münasibətilə təşkil olunacaq konsert proqramı isə muzeyin Uşaq şöbəsi və H.Sarabski adına 7 nömrəli uşaq musiqi məktəbinin birgə əməkdaşlığı ilə baş tutacaq. Burada H.Sarabski adına 7 nömrəli uşaq musiqi məktəbinin şagirdlərinin ifasında bir-birindən gözəl klassik və müasir musiqi nümunələri təqdim ediləcək, vətənpərvərlik ruhunda şeirlər səsləndiriləcək.

Sentyabrın 18-də Üzeyir Hacıbəyli adına Dövlət Simfonik Orkestri və Azərbaycan Dövlət Rəqs Ansamblı Heydər Əliyev Sarayının səhnəsində Arif Məlikovun "Məhəbbət əfsanəsi" baletinin quruluşunda iştirak edəcək. Tədbirlərin davamı olaraq, sentyabrın 19-da isə Filarmoniyanın yay zalında Azərbaycan kinematoqrafiyasının 125 illiyinə həsr olunmuş konsert təşkil ediləcək. Eyni zamanda, Azərbaycan Dövlət Akademik Filarmoniyasının kamera orqan musiqisi zalında müxtəlif konsertlərin və yaradıcılıq axşamlarının keçirilməsi nəzərdə tutulur.

***Zümrüd BAYRAMOVA***

## Heydər Əliyev ideyaları əbədiyaşardır!



"Heydər Əliyev İli" ilə əlaqədar Yeni Azərbaycan Partiyasının (YAP) Mərkəzi Aparatı tərəfindən hazırlanan və İdarə Heyətinin qərarı ilə təsdiqlənən Tədbirlər Planı çərçivəsində Ulu Öndərin zəngin dövlətçilik irsinin, əbədiyaşar ideyalarının öyrənilməsi və yeni nəslə aşılanması, xalqımız və dövlətimiz qarşısında misilsiz xidmətlərinin geniş ictimaiyyətə çatdırılması məqsədilə ardıcıl tədbirlər həyata keçirilir.



2023-cü il sentyabrın 14-də YAP Lerik rayon təşkilatı tərəfindən gənc partiya fəallarının iştirakı ilə Lerik rayon Heydər Əliyev Mərkəzinə ekskursiya təşkil olunub.

Əvvəlcə Ulu Öndərin abidəsi ziyarət olunub, abidənin önünə gül dəstələri düzülüb. Mərkəzdə gənclərə müstəqil Azərbaycan dövlətinin memarı, Ümummilli Lider Heydər Əliyevin zəngin həyat yolu və müstəsna fəaliyyəti haqqında geniş məlumat verilib. Gənclər eksponat, fotoşəkil və kitablarla tanış olublar.

Daha sonra təşkil olunan dəyirmi masada Ulu Öndər Heydər Əliyevin Vətən və xalq qarşısında müstəsna xidmətlərindən bəhs olunub. Sonda xatirə fotosu çəkdirilib.





# Medianın İnkişafı Agentliyində MEDİA könüllüləri ilə görüş olub

Sentyabrın 15-də Medianın İnkişafı Agentliyinin (MEDİA) İcraçı direktoru Əhməd İsmayılov MEDİA könüllüləri ilə görüşüb. SİA-nın Medianın İnkişafı Agentliyindən əldə etdiyi məlumata görə, görüş zamanı Əhməd İsmayılov müasir informasiya şəraitində mütəxəssislərin hazırlanmasında media təhsilinin mühüm əhəmiyyət kəsb etdiyini, təcrübi biliklərin artırılması istiqamətində müxtəlif tədbirlərin həyata keçirilməsinin vacibliyini vurğulayıb.

Qeyd edək ki, Medianın İnkişafı Agentliyi media sahəsinin inkişafı istiqamətində həyata keçirilən layihələr çərçivəsində gənclərin potensialından daha səmərəli istifadə etmək, onların fərdi və peşəkar inkişafına şərait yaratmaq, media sahəsində gənclərin fəal iştirakını və yaradıcı-innovativ potensialını stimullaşdırmaq, eyni zamanda, ölkədə könüllülük hərəkatına dəstək olmaq məqsədilə MEDİA könüllüləri proqramını həyata keçirir.



## Dini və milli tolerantlıq, millətlərarası münasibətlərin inkişaf etdirilməsində

# AZƏRBAYCAN BİR NÜMUNƏDİR

**İnsanların təhlükəsizlik, əmin-amanlıq şəraitində yaşaması ona görə hər zaman prioritet məsələ hesab olunub ki, bəşəriyyət üçün ən dəyərli sayılan insandır və insan həyatıdır. Məhz bu təhlükəsizliyin, əmin-amanlığın təmin edilməsi də ilk növbədə dini, müxtəlif millət və dinlərə mənsub insanların qarşılıqlı anlaşma və qarşılıqlı hörmət şəraitində yaşamasından bilavasitə asılıdır, hansı ki, həmin şərait fərqli mədəniyyətlərin dialoqundan asılı hesab olunur.**

Azərbaycan elə bir coğrafiyada yerləşir ki, bu ölkənin ərazisində hələ lap qədim zamanlardan bu günə qədər müxtəlif mədəniyyətlərin nümayəndələrinin, fərqli dini inanclara mənsub insanların yaşaması təəccüb doğurmur. Çünki Azərbaycan fərdli dinlərin və mədəniyyətlərin qovşağında yerləşdiyi üçün bu məqam anlaşılandır. Amma həmin o fərqli inanclara, mədəniyyətlərə, tarixi köklərə malik insanların, müxtəlif etnosların və millətlərin nümayəndələrinin ölkəmizin ərazisində məskunlaşaraq, əsrlər boyu dinc və yanaşı yaşaması, təhlükəsizlik, əmin-amanlıq şəraitində, dostluq şəraitində ömür sürdüyü barədə xronoloji məlumatlar ölkəmizin tarixən tolerant ölkə olduğunu, multikultural dövlət olduğunu təsdiq edir.

Dünyanın müxtəlif yerlərində olduğu kimi, Azərbaycanda da yaşayan insanların fərqli dini inancları olub və ayrı-ayrı xalqlar, hətta etnoslar belə özlərinə məxsus olan dini inancları ilə fərqləniblər. Amma bununla belə hansısa bir toplumun digərinin dini inancına hörmətsizliklə yanaşması yolverilməz sayılıb və buna heç yol da verilməyib. Elə indi də belədir və tolerantlıq, multikulturalizm ənənələrimiz bizim milli dəyərlərimiz olaraq qorunur. Həmçinin, əhalisinin böyük əksəriyyəti müsəlman olan, İslam dini inancına sadiq qalan vətəndaşlarımız çox yaxşı bilirlər ki, heç bir səmavi din, heç bir inanc vətəndaşın bir başqasının inancına hörmətsizlik etməsini qəbuledilən saymayb. Əksinə, həmin müqədddəs kitablar, əlalxüsus da müsəlmanların səmavi kitabı sülh və əminamanlığı tövsiyə edir. Həm milli tolerantlıq ənənələrimiz, həm də islam əxlaqı ancaq tolerantlıq aşılayır.

Müxtəlif etnosların, millətlərin, fərqli dinlərə sitayiş edən insanların tarixən dostluq və qardaşlıq şəraitində yaşadığı Azərbaycan tolerant ölkə nümunəsi sayılır. Çünki tarix boyu ölkəmizdə müxtəlif milli mənsubiyyətə malik, fərqli inanclara, dini etiqadlara, dilə, adət-ənənələrə mənsub etnik qruplar ayrıseçkiliyə, təzyiqlərə məruz qalmayıblar, əksinə, onlara heç bir fərq qoyulmayıb, onlara humanistcəsinə yanaşılıb. Təsadüfi deyil ki, tarix boyu ölkəmizin ərazisində bütpərəstlik, zərdüştlük, yəhudilik, xristianlıq və bir çox başqa dini inanclar yayılıb, hansı ki, həmin fərqli inanclara sahib insanlar arasında xoşagəlməz heç bir hadisə qeydə alınmayıb. Azərbaycanda tarixən heç zaman istər milli, istər dini, istərsə də hər hansı zəmində heç bir diskriminasiya hadisəsi kimi arzuolunmaz hal olmayıb və bu fakt özü ölkəmizin tolerant ölkə olduğunu isbatlayır.

Diqqətə çatdıraq ki, heç də bütün ölkələri Azərbaycan kimi tolerant ölkə adlandırmaq mümkün deyil. Dünyanın 21 ölkəsində aparılan etnik təmizləmə siyasətinə görə 12 milyona yaxın insan qaçqın və məcburi köçkün şəraitində ev-eşiyindən, yurd-yuvasından didərgin düşmüş vəziyyətdə yaşayır. Qlobal miqyasda müşahidə edilən qarşıdurmaların da bəzilərinin elə etnik-dini anlaşılmazlıqlara, qarşıdurmalara görə olduğu bəllidir. Bir çox ölkələrdə, hətta eyni dinə mənsub müxtəlif təriqətlər arasında belə mübarizələr mövcud olub və hələ də davam edir, hansıki bu mübarizələr nəticəsində qanlı toqquşmalar da müşahidə edilir. Deməli, bir sıra ölkələrdə mədəniyyətlərarası, dinlər və millətlərarası münasibətlərin nörmal olmaması insanların təhlükəsiz, dinc, əmin-amanlıq şəraitində yaşamasına mane olur. Dünyanın bəzi ölkələrində xalqların, millətlərin, müxtəlif dini etiqad və inanclara sahib insanların birbirinə, bir-birinin etiqadına, inancına hörmətlə yanaşmaması, birgəyaşayışın məsuliyyətini dərk etməməsi fonunda Azərbaycanda indiyə qədər heç bir dini, milli qarşıdurmaların olmadığı onu göstərir ki, ölkəmiz məhz elə dini və milli tolerantlıqda, millətlərarası münasibətlərin inkişaf etdirilməsində də çoxlarına örnək, nümunə hesab olunur. Ölkəmizdə bütün dinlərə, istənilən dini inanca sahib olanlara, istənilən adətənənə sahiblərinə hörmətlə yanaşılır və kimsə öz milli mənsubiyyətinə, yaxud inancına görə digərlərindən fərqləndirilmir və Azərbaycan Respublikası Konstitusiyasının vicdan azadlığı ilə bağlı müddəalarının həyata keçirilməsi üçün yaradılan şərait özü elə tolerantlıq nümunəsidir. Məsələlərin hüquqi müstəvidə tənzimlənməsinin mövcudluğu da, ölkəmizdə bütün dini icmaların bərabər hüquqlara malik olması faktı da nümunə və örnək olmaq üçün yetərlidir. Azərbaycan Respublikası qanunlarına tolerantlıq məsələlərində də istinad edilməsi müstəqilliyimizin yenidən bərpasından sonra, daha dəqiq desək, Ümummilli Lider Heydər Əliyevin xalqımızın təkidli tələbi ilə hakimiyyətə qayıdışından sonra mümkün oldu. Heydər Əliyev ikinci dəfə hakimiyyətə qayıtdıqdan sonra ölkəmizdə dinlər və etnik qruplar arasında münasibətlər daha da möhkəmləndi və bu sahə dövlət siyasətinin prioritet istiqamətlərindən birinə çevrildi. Ulu Öndər milli-dini dəyərlərimizin qorunmasında, islam dininə hörmətin, ehtiramın göstərilməsində, xalqımızın dini əqidəsinin möhkəmləndirilməsində öz əməli fəaliyyəti ilə müstəsna rol oynayaraq, əvəzsiz tövhələr verdi və bu zamana qədər bu ali dəyər qanunla qorunur. Ulu Öndərin siyasi kursunun davamçısı, Azərbaycan Prezidenti cənab İlham Əliyev hazırda ölkədə dini etiqad azadlığının təminatçısı və himayəçisidir.

Müxtəlif dini, etnik mənsubiyyətə malik insanların özlərini cəmiyyətimizin ayrılmaz tərkib hissəsi sayması, dövlətimiz üçün, Azərbaycanımız üçün əllərindən gələni əsirgəməməsi təsadüfi deyil, dövlətin diqqətini, qayğı və himayəsini eyni dərəcədə hiss etməsindəndir. Biz 44 günlük müharibə zamanı bunun şahidi olduq və gördük, əmin olduq ki, ölkəmizin ərazisində məskunlaşan fərqli milli-etnik qrupların nümayəndələri Azərbaycan naminə canlarından keçməyə hazır olduqlarını təkcə sözdə bəyan etmədilər. Onlar müharibədə böyük ruh yüksəkliyi ilə ürəkdən iştirak etdilər, Azərbaycanın qələbəsi naminə öz töhfələrini verdilər, Zəfər sevincimizi də birgə bölüşdük. Bütün bu sadalanan faktlar Azərbaycanın tolerant ölkə olduğunu təsdiqləyir və sülhün, əmin-amanlığın, təhlükəsizliyin təmin olunmasında öz töhfələrini verir.

***İnam Hacıyev***







# Türk dünyası birliyinə Azərbaycanın töhfəsi

## İLHAM ƏLİYEV: "Azərbaycan həmişə türk dünyasının sıx birləşməsinə öz töhfəsini verib və bundan sonra da türk dünyasının birliyi amalına sadiq qalacaq"

Bu sözləri ötən ilin noyabrında Səmərqənddə Türk Dövlətləri Təşkilatının IX Zirvə görüşü zamanı çıxışında Prezident İlham Əliyevin bəyan etdiyi kimi Türk Dövlətləri Təşkilatına üzv ölkələrlə əlaqələrin bütün sahələrdə möhkəmləndirilməsi Aəzərbaycanın xarici siyasətinin əsas prioritetlərindən birini təşkil edir. Və bu gün Prezident İlham Əliyevin şəxsi səyi nəticəsində türk birliyi ən yüksək əməkdaşlıq zirvəsinə qalxıb və türk dövlətləri dünyada baş verən bütün qlobal siyasi proseslərə, həmçinin təbii böhranlara qarşı birgə mübarizə aparırlar.

Bəli, bu gün qürurla deyə bilərik ki, artıq Türk Dövlətləri Təşkilatı (TDT) regional güc mərkəzinə çevrilib və beynəlxalq siyasi proseslərə təsir imkanları yüksəlməkdədir. Və martın 16-da Ankarada Türk Dövlətləri Təşkilatının Dövlət Başçılarının ”Fəlakət - Fövqəladə halların idarə edilməsi və humanitar yardım” mövzusunda Fövqəladə Zirvə görüşü, bilavasitə Prezident İlham Əliyevin təşəbbüsü ilə reallaşıb. Qardaş ölkədə baş verən dağıdıcı zəlzələ ilə əlaqədar dövlətimizin başçısı qardaş ölkəyə bir daha dəstəyini nümayiş etdirdi. Bu həmçinin Türk dünyasında qarşılıqlı dəstəyin və hörmətin təzahürüdür.

Fövqəladə Zirvə görüşündəki çıxışında dövlətimizin başçısı Azərbaycandan qardaş ölkəyə zəlzələ ilə əlaqədar göndərilən yardımlar haqqında məlumat verdi. İlk gündən Azərbaycan qardaş ölkənin yanında oldu, həmrəylik nümayiş etdirdi, təyyarələrlə, avtomobil karvanları ilə fəlakət zonasına yardımlar yola salındı, xilasedicilər, həkimlər göndərildi. Heydər Əliyev Fondu tərəfindən də qurumun Prezidenti Mehriban xanım Əliyevanın göstərişi ilə zəlzələdən ziyan çəkənlərə yardımlar çatdırıldı. Həmçinin vətəndaşlarımız da bu məsələdə çox fəallıq göstərdilər. Təbii ki, bu dəstək təmənnasız qardaşlığın göstəricisidir.

### ”AZƏRBAYCAN BÜTÜN DÖVRLƏRDƏ TDT-NİN GÜCLƏNMƏSİNƏ ÖZ DƏSTƏYİNİ ƏSİRGƏMƏYİB”

Prezident İlham Əliyev sentyabrın 7-də Türk Dövlətləri Təşkilatının üzv və müşahidəçi dövlətlərinin təbii fəlakət və fövqəladə halların idarə edilməsi üzrə nazirlərinin ikinci görüşünün və ”Bakı-2023” beynəlxalq təliminin iştirakçıları ilə görüşdə Azərbaycanın bütün dövrlərdə TDT-nin güclənməsinə öz dəstəyini əsirgəmədiyinideyib və bildirib ki, Azərbaycanın bu istiqamətdə təcrübəsi kifayət qədər böyükdür: ”Son illər ərzində maddi-texniki bazamızın öhkəmləndirilməsi istiqamətində işlər aparılıb, xilasedicilərin peşəkarlığı artıb. Bütövlükdə bizim müxtəlif bölgələrdə, o cümlədən Türk dünyasını birləşdirən ölkələrdə apardığımız xilasedici missiyalarımız əyani şəkildə bizim imkanlarımızı və niyyətimizi göstərir. Biz hər zaman bir-birimizin yanında olmalıyıq, Türk Dövlətləri Təşkilatının inkişafı ilə bağlı bütün üzv ölkələr öz dəyərli töhfələrini verirlər, o cümlədən Azərbaycan. Azərbaycan bütün dövrlərdə bu təşkilatın güclənməsinə hər zaman öz dəstəyini əsirgəməmişdir və bizim xarici siyasət prioritetləri arasında təşkilata üzv ölkələrlə əlaqələr birinci yer tutur. Bunu mən Prezident kimi dəfələrlə bəyan etmişəm, eyni zamanda, biz bunu əməli işlərdə də göstərmişik”.



Son vaxtlar dünyada fövqəladə halların sayının kəskin artdığını deyən Prezident İlham Əliyev onu da bildirib ki, iki aydan sonra türk dövlətlərinin başçıları səviyyəsində Zirvə görüşü keçiriləcəkdir və indi Zirvə görüşünə böyük hazırlıq işləri gedir, o cümlədən fövqəladə halların idarə edilməsi istiqamətində də işlər gedir: ”Bildiyimə görə, iclasda, o cümlədən qarşılıqlı yardım haqqında sazişin hazırlanması da nəzərdə tutulmuşdur. Buna böyük ehtiyac var. Çünki hamımız yaxşı bilirik ki, son vaxtlar bölgəmizdə və bütövlükdə dünyada fövqəladə halların sayı kəskin artıb. Bunun bir çox səbəbləri var. Ancaq fakt odur ki, bu gün misli görünməmiş ölçüdə daşqınlar, zəlzələlər, yanğınlar adi hala çevrilib. Fürsətdən istifadə edərək, bir daha qardaş Türkiyəyə dəhşətli zəlzələdə həlak olanların xatirəsini hörmətlə anaraq, bir daha başsağlığı vermək istəyirəm. Bildiyiniz kimi, Azərbaycan ilk saatlardan, ilk dəqiqələrdən bu dəhşətli zəlzələ ilə bağlı öz səylərini göstərmişdir”.

Həmçinin dövlət başçımız vurğulayıb ki, hazırda Qəhrəmanmaraş şəhərində Azərbaycan dövləti tərəfindən inşa ediləcək şəhərciyin son parametrləri müəyyən edilir və yaxın zamanlarda biz inşaata başlayacağıq.

### GÖRÜŞÜN ƏN MÜHÜM ASPEKTİ İSƏ HEÇ ŞÜBHƏSİZ Kİ, AZƏRBAYCAN PREZİDENTİNİN ŞİMALİ KİPR BƏYANATI OLDU

Görüşün ən mühüm aspekti isə heç şübhəsiz ki, Azərbaycan Prezidentinin Şimali Kipr bəyanatı oldu: ”Şimali Kiprin bayrağı bizim tədbirdə dalğalanmalıdır və dalğalanacaqdır. Bu, Azərbaycana münasibətdə ikili standartlardan çıxış edən, etnik düşmənçilik və təhlükəli həddə almış separatizmə dəstək verənlərə Bakının layiqli cavabı oldu. Azərbaycan Lideri bir daha göstərdi ki, biz hər kəslə haqq etdiyi və anladığı dillə danışa biləcək hərbi-siyasi gücük!”. Və Şimali Kiprə dair sonrakı mövqeyimiz də çox aydındır. Azərbaycan bütün Türk dünyasında birləşən qardaşlarımızın hər zaman yanında olubdur. Biz haqq yolunda hər zaman bir-birimizin yanındayıq və yanında olacağıq.

Prezident İlham Əliyev onu da vurğuladı ki, bizim müxtəlif bölgələrdə, o cümlədən Türk dünyasını birləşdirən ölkələrdə apardığımız xilasedici missiyalarımız əyani şəkildə bizim imkanlarımızı və niyyətimizi göstərir: ”Biz hər zaman bir-birimizin yanında olmalıyıq, Türk Dövlətləri Təşkilatının inkişafı ilə bağlı bütün üzv ölkələr öz dəyərli töhfələrini verirlər, o cümlədən Azərbaycan. Azərbaycan bütün dövrlərdə bu təşkilatın güclənməsinə hər zaman öz dəstəyini əsirgəməmişdir və bizim xarici siyasət prioritetləri arasında təşkilata üzv ölkələrlə əlaqələr birinci yer tutur. Bunu mən Prezident kimi dəfələrlə bəyan etmişəm, eyni zamanda, biz bunu əməli işlərdə də göstərmişik”.

”Türk dünyası böyük bir ailədir və şadam ki, son illər ərzində bütün üzv və müşahidəçi ölkələr tərəfindən təşkilata böyük dəstək göstərilir”,-deyən Azərbaycan Prezidenti İlham Əliyev onu da bildirdi ki, təbii ki, növbəti illərdə də bu dəstək göstərilməlidi: ”Bu gün dünya miqyasında Türk Dövlətləri Təşkilatı öz layiqli yerini tuta bilibdir. Ancaq bundan sonra da fəal çalışmalıyıq ki, bizim təsir imkanlarımız daha da geniş olsun. Burada, əlbəttə ki, həm qarşılıqlı yardım, eyni zamanda, iqtisadi əlaqələrin gücləndirilməsi, siyasi müstəvidə daimi koordinasiya və məsləhətləşmələrin aparılması, təhlükəsizlik sahəsində qarşılıqlı yardım, yəni, bütün bunlar önəmli amillərdir və bizim birliyimizi daha da gücləndirəcək. Əminəm ki, yaxın gələcəkdə bizim təşkilatımızın dünyadakı mövqeyi və rolu daha da artacaqdır”.

Dövlətimizin başçısı, həmçinin bildirib ki, son bir neçə il ərzində mənim Təşkilata üzv olan ölkələrə çoxsaylı səfərlərim həyata keçirilmişdir: ”Təşkilata üzv ölkələrin dövlət və hökumət başçılarının da Azərbaycana bir çox səfərləri həyata keçirilmişdir və bu il də bu səfərlər nəzərdə tutulur. Yəni, bu, bir daha onu göstərir ki, biz düzgün yoldayıq”.

Bir sözlə, bu gün real mənzərə onu deməyə əsas verir ki, türk birliyi qlobal gücə çevrilib və Azərbaycanın bu həmrəyliyə töhfələri böyükdür. Prezident İlham Əliyevin vurğuladığı kimi: ”Bu gün dünya miqyasında Türk Dövlətləri Təşkilatı öz layiqli yerini tuta bilibdir. Ancaq bundan sonra da fəal çalışmalıyıq ki, bizim təsir imkanlarımız daha da geniş olsun Əminəm ki, yaxın gələcəkdə bizim təşkilatımızın dünyadakı mövqeyi və rolu daha da artacaqdır”.

**RƏFİQƏ KAMALQIZI**

# 15 sentyabr: şən və kövrək anlar...



**İllər ötür... Onbirinciləri məktəbdən müstəqil həyata yola salır. 2-ci sinfi 3, 3-cünü 4, 4-cünü 5 və sair sıra ilə qaldırır. Bu siniflərdə təhsil alan uşaqları da bir yaş böyüdür. Və nəhayət, bu illər hər il birinciləri qarşılayır məktəbdə...**

15 sentyabr... Təqvimin bu günü məktəbin açılmasını 3 ay yarım səbirsizliklə gözləyən məktəblilər üçün sevinc dolu olur. Axı onlar məktəbləri, dost və rəfiqələri, sevimli, doğma müəllimləri üçün darıxırlar. Onları yenidən görmək üçün tətilin günlərini sayırlar.

Hər yeni dərs ili onları bir yaş da böyüdür, həyata baxışlarını dəyişir. Seçimlərini müəyyənləşdirir. Hər biri bir ixtisas seçməklə gələcək planlarını qururlar məktəblərdə. Hazırlaşır, mübarizə aparır, arzularına çatmaq üçün mücadilə





edirlər. Odur ki, məktəb onların ən sevimli məkanıdır. Yeni dərs ilinin başlanması isə ən sevimli anlarıdır. Bu anlar onları şənləndirir...

Onlardan fərqli olaraq birincilər üçün məktəb, sinif yoldaşı, müəllim anlayışı hələlik başa düşülən deyil. Elə buna görə də birincilər 15 sentyabr səhəri yuxudan oyanarkən hara gedəcəklərini, orada nə ilə qarşılaşacaqlarını əsla dərk etmirlər. Onları məmnun edən sadəcə valideynlərinin aldığı yeni paltar, ayaqqabı və çantalardır. Elə sevinclə, xoşbəxtliklə geyinirlər ki, yeni paltarlarını...

Bir az sonra isə bağça yolundan tamamilə fərqli bir yolda olduqlarını görəndə isə dodaqlarını büzüb doluxsunur, kövrəlir, ağlamağa başlayırlar. ”Hara gedirik, ay ana?”, ” Hara gedirik, ay ata?” suallarını yağdırırlar. Onların bu sualları isə hələ də mənasını dərk etmədikləri ”məktəbə” sözü ilə cavablandırılır. Bu tanış olmayan söz isə onların daha da kövrəlməsinə səbəb olur.

Məktəbə çatdıqda isə yeni dərs ilinin başlanması təntənəsi bu körpələrə hər gün yollandıqları bağçanın sakitliyindən fərqli göründüyü üçün artıq burada ağlayırlar, həm də uca səslə, eşidiləcək dərəcədə. Hələ ilk zəng vurulandan sonra siniflərə yollanmamaq istəkləri... Ana-atalarının ayaqlarına sarılmaları, sinfə daxil olanda vahimələnmələri, müəllimi görəndə təəccüblənmələri var. Ən əsası isə elə bundan sonra başlayır. Valideynin dərs başladığı üçün sinfi tərk etməsi zamanı onu qoyub getdiyini görən bu körpələrin kollektiv ağlaması... Qızlı-oğlanlı müxtəlif səslər bir-birinə qarışır. Bu kövrək anın isə bir səbəbi var: bizi qoyub hara gedirsiniz?..

Onlar elə bağçaya da ilk dəfə gedəndə bu cür kövrəlmişdilər. Deməli, onlar bir neçə yaş böyüsələr də, hələ də körpədilər. Onların ana qucağına, ata məhəbbətinə, müəllim qayğısına ehtiyacı var. Elə bu səbəbdən də ibtidai sinif müəllimlərinin işi çox çətindir. Çünki onlar birincilərə tək elım öyrətmir, həm də qayğıkeş bir ata- ana olurlar. Ağlayan uşaqların göz yaşını silir, təsəllisi olur, köynəyinin qolunu, pencəyinin yaxasını düzəldirlər. Kitab-dəftərlərini çantalarına yığmaqda köməklik edirlər. Hələ qış aylarında üst geyimlərini də müəllimlər geyindirir. Yeri gələndə bantlarını, qalstuklarını da səliqəyə salırlar... Düz dörd il uşaqlar bu qayğı əhatəsində olur. Odur ki, ibtidai təhsili bitirən zaman da müəllimləri üçün kövrəlir, ondan ayrılmaq istəmirlər.

Lakin bu, onların əlində deyil axı. Məktəbdə rolu illər oynayır. Bu illər həftələri aylara, ayları illərə çatdırıb zamanı bir yaş qocaltdıqca, illər də məktəbliləri bir yaş böyüdur. Onları ibtidai sinifdən alıb aparır. Neçə-neçə müəllimlərin əhatəsinə salır. Daha sonra uşaqlar bu müəllimlərə isinişməyə başlayırlar. Yuxarı siniflərə addımladıqca bu müəllimlərdən onların ən yaxın dostu, ən yaxın sirdaşı da olur.

Beləliklə, onbirinci sinfə-məktəbin son ilinə qalxırlar. Birinci sinif qədər onbirinci sinif də kövrək anlarla doludur. Lakin bu anlar bir-birindən çox fərqli, ayrıdır. Birinci sinifdə anlaşılmayan kövrəklik, onbirinci sinifdə dərk edilən kövrəklik... Məktəbdən, onbirillik sinif yoldaşlarından, müəllimlərdən ayrılmağın kövrəkliyi...

Lakin həyat davam edir, deyək. Həyat davam etdikcə də illər bir-birini qovalayır. Odur ki, hələ məktəblərimizin divarları arasından çox birincilər və onbirincilər keçəcək. Hər birinin qəlbində min bir xatirə ilə...

Bu il də həmin illərdən biridir. 15 sentyabr səhərindəki şən və kövrək anlar bütün bunları yada salmağa əsas oldu. Çünki yanından ötüb işə gəldiyim məktəbin qarşısında eynilə bu yazıda olan mənzərə var idi. Yuxarı sinif şagirdləri bir-biri ilə öpüşüb görüşürdü, salamlaşırdı, söhbətləşirdi.... Birincilər isə çaşqınlıq içərisində onları seyr edirdi.

Yolboyu onların bir azdan ilk zəngin səsi ilə sinif otaqlarına daxil olmalarını və hər bir valideynin müşahidəçisi olduğu halları yaşayacaqlarını xəyal edirdim. Çünki biz də axı vaxtilə övladımızın əlindən tutub məktəbə aparanda o mənzərələrin şahidi olmuşuq...

Lakin tezliklə birincilərin bu kövrəkliyi, bir qədər də ərköyünlüyü geridə qalır. Onlar məktəbə də, müəllimlərinə də bağlanırlar. Odur ki, yeni dərs iliniz uğurlu olsun, əziz məktəblilər... Qoy illər ötsün, keçsin ki, birincilərin kövrəkliyi geridə qalsın, onbirincilərin arzusu çin olsun!

***Mətanət Məmmədova***







## ”Azərbaycan hər zaman Ermənistanı sülhə dəvət edib”

*SİYASİ EKSPERT DANIŞDI*

**“Son zamanlarda həm şərti sərhədlərimizdə erməni silahlı qüvvələri, həm də Qarabağda fəaliyyət göstərən qanunsuz erməni dəstələri Azərbaycanın hərbi mövqelərinə qarşı müxtəlif təxribatlar həyata keçirir, atəşkəsi pozurlar”. Bu sözləri SİA-ya açıqlamasında Trend BİA-nın Baş direktor müavini, siyasi şərhçi Sahil Kərimli bildirib. Onun sözlərinə görə, bütün bunlar qəbuledilməzdir:**

”Azərbaycan dövləti hər zaman olduğu kimi yenə böyük səbr, təmkin nümayiş etdirir. Buna baxmayaraq, qarşı tərəf unutmamalıdır ki, Azərbaycan ordusunun hər an hərbi təxribatların qarşısını alınmaq üçün imkanları var. Lakin Azərbaycan heç zaman bölgədə yeni müharibənin yaranmasını istəməyib. Proseslər bu cür davam edərsə, bu zaman dövlətimiz öz suveren hüququndan istifadə edərək, daha ağır hərbi əməliyyatlara başlayacaq. Azərbaycan hər zaman Ermənistanı sülhə dəvət edir. Təəssüf ki, qarşı tərəf isə bu dəvətlərə qeyri-konstruktiv cavablar verir”.

***Səbinə Hüseynli***

BAXIŞ BUCAĞI

# Rusiyadan Ermənistana açıq mesaj

*"Bu, artıq başqa dövlət başçılarının başına gəlib"*

**Ermənistanın Qərblə yaxınlaşması Qarabağ münaqişəsinin yekun həllinə və sülhün bərqərar olmasına kömək etməyəcək. Əksinə, İrəvanın Moskva ilə qarşılıqlı əlaqədən imtinası regionda gərginliyin daha da artmasına səbəb olacaq. Son həftələr internetdə Ermənistan və Azərbaycanın şərti sərhədində yenidən qoşun və texnika topladığı barədə getdikcə daha çox məlumat yayılıb. Bu barədə Rusiya mətbuatı yazır.**



Qeyd edilir ki, indiyədək hər iki ölkənin hərbçiləri arasında hərbi toqquşma qeydə alınmayıb. Lakin Ermənistan-Azərbaycan müharibələrinin bütün təcrübəsini nəzərə alsaq, tərəflərdən birinin "təxribat" elan etməsi və hərbi əməliyyatlara başlaması an məsələsidir. Bu münaqişəni seyr edərkən, açıq şəkildə böhran yaşamağa başlayan Rusiya-Ermənistan münasibətlərinin yeni vektorunu xatırlamaya bilmirsən. Bu, xüsusilə ABŞ-la hərbi təlimlər və Ukraynaya humanitar yardımın ötürülməsi ilə bağlı son xəbərlərdən sonra aktuallaşıb.

Biz geosiyasətdən danışmazdan əvvəl Ermənistanla Azərbaycan arasındakı qarşıdurmanın mahiyyətini başa düşməliyik. Ölkələr arasında münaqişə 1988-ci ildə başlayıb. Səbəb hər iki dövlətin öz ərazisi hesab etdiyi keçmiş Dağlıq Qarabağ əraziləridir. Müharibə 1994-cü ilə qədər davam edib və qeyri-müəyyən vaxta qədər atəşkəs imzalanıb. Lakin zaman-zaman atəşkəs pozulub və 2016-cı ildə yeni müharibə başlayıb. Münaqişə ikinci dəfə 2020-ci ilin sentyabrında kəskinləşib. Sonra Ermənistan və Azərbaycan bir-birini hərbi əməliyyatlara başlamaqda ittiham ediblər. Bir ay sonra ölkələrin liderləri sülh sazişi imzalayıblar. Rusiya bölgəyə sülhməramlı qoşunlarını göndərərək vasitəçi kimi çıxış edib.




Danışıqlar fonunda İrəvanda etiraz aksiyaları başlayıb - iştirakçılar Ermənistanın baş naziri Nikol Paşinyanın istefasını tələb ediblər. Lakin bu baş verməyib. İki il sonra, 2022-ci ilin mayında etirazlar yenidən başlayıb. Səbəb Qarabağın statusu ilə bağlı Azərbaycanla sülh sazişinin imzalanmasının mümkünlüyü göstərilib. Həmin ilin avqustunda münaqişə yenidən alovlanıb: Bakı İrəvandan Ermənistanı Qarabağla birləşdirən Laçın yolunun azad etməyi tələb edib. Sərhəddə atışmalar başlayıb və hər iki tərəf itkilər verib.

Artıq bu il, mayın 25-də Ermənistanın baş naziri Nikol Paşinyan İrəvan və Bakının ərazi bütövlüyünün qarşılıqlı tanınması barədə razılığa gəldiyini bəyan edib. Azərbaycan Prezidenti İlham Əliyev çıxışı zamanı "Bizim Ermənistana heç bir ərazi iddiamız yoxdur" deyib. Buna baxmayaraq hər iki lider Laçın yolundakı vəziyyətlə bağlı fərqli fikirlər səsləndirib, Ermənistan baş naziri "Azərbaycan qüvvələri tərəfindən yol nəzarətə götürülüb", deyib. Gördüyümüz kimi, indi ölkələr arasında sülh məsələsi açıq qalır. Beynəlxalq politoloq Andrey Buzarovun fikrincə, geosiyasi nöqteyi-nəzərdən bu münaqişənin əsas səbəbi Rusiyanın Cənubi Qafqaz regionunda təsirini artırmaq istəyidir. "Münaqişənin özü kortəbii baş verməyib, onun müəyyən geosiyasi fonu var və bu gün əsas benefisiar Rusiya Federasiyasıdır. Burada söhbət təkcə indiki dövrdən deyil, həm də münaqişənin bütün dövründən gedir. Bu, onunla bağlıdır. Rusiyanın Cənubi Qafqazda öz təsirini iki ölkə arasındakı münaqişəyə görə gücləndirmək istəyi", - Buzarov deyir.

Hazırda Ermənistan-Rusiya münasibətləri heç də yaxşı vəziyyətdə deyil. Azərbaycanla Ermənistan arasında baş verən son müharibədən sonra İrəvan Rusiyadan çox incimişdi və indi açıq şəkildə Qərblə əməkdaşlığa hazır olduğunu nümayiş etdirməyə çalışır. Söhbət onların ABŞ-la birgə təlimlərindən, Roma Əsasnaməsinin ratifikasiyasından və Ukraynaya humanitar yardımın ötürülməsindən gedir.

Deməli, Qarabağ münaqişəsinin həlli Rusiya üçün əla fürsətdir ki, Ermənistanı Moskvanın tərəfinə keçməyə məcbur etsin və yenidən öz lehinə çevrilsin. Axı, əslində Rusiya Ermənistanın həm hərbi, həm də iqtisadi baxımdan əsas tərəfdaşıdır. "İndi 2020-ci ildə Ermənistanla Azərbaycan arasında müqavilə imzalandığı üçün Qarabağda baş verən bir çox prosesləri təhlil etmək daha çətindir. Putin yeganə vasitəçi və qarant oldu, çünki heç bir beynəlxalq tərəfdaş bu prosesdə iştirak etməmişdi. İndi biz bu vasitəçiliyin nəticəsini görə bilərik. Yeni müharibənin başlayacağını söyləmək çətindir. Axı bu, Rusiyadan asılıdır. Əgər Moskva üçün faydalı olarsa, yəqin ki, müharibə başlayacaq. Və sual budur ki, beynəlxalq ictimaiyyət buna necə reaksiya verəcək", Buzarov bildirib.

Qeyd etdiyimiz kimi, Ermənistanın əsas müttəfiqi Rusiyadır. Bundan başqa, ermənilərin İranla ortaq maraqları var. Azərbaycanın tərəfində Avropa (o cümlədən Ukrayna), ABŞ və Ermənistanın tarixi düşməni Türkiyədir. Onu da qeyd etmək lazımdır ki, beynəlxalq hüquqa görə, mübahisəli ərazilər Azərbaycana məxsusdur. Bütün bunları nəzərə alanda belə bir sual yaranır: Ermənistanın ciddi dünya dəstəyi olan belə güclü düşməni varsa, Rusiya ilə niyə dalaşmalıdır?

Biz belə təklif edə bilərik ki, Ermənistan bu yolla bu müharibədən bezdiyini və müharibəni davam etdirmək istəmədiyini göstərmək istəyir. İndi dövlətin başında Rusiya və ya Çindən çox Qərbə meylli siyasətçilər dayanır. Odur ki, Ermənistanın yuxarıda qeyd etdiyimiz addımları çox güman ki, dəbdəbəli xarakter daşıyır - onlar bu müharibəni nəhayət başa çatdırmaq üçün güzəştə getməyə razılaşırlar. Digər sual isə ondan ibarətdir ki, Qərb Rusiyadan ehtiyatlı addımlarla uzaqlaşmağa çalışan Ermənistana aydın təminat verməyə hazırdırmı? Birləşmiş Ştatlar, Aİ və digər dövlətlər Ermənistana ölkənin Qərbə daha dərin inteqrasiyası ilə bağlı alternativ variantlar təklif etməyiblər. Yeganə ümid Baydenin bir neçə il əvvəl erməni xalqının soyqırımı ilə bağlı bəyanatı oldu. Amma Ermənistanın yaxınlaşması Qərblə münasibətləri ciddi nəticələrə gətirib çıxara bilər.İndi biz gərginləşməni görürük ki, bu, bəlkə də dolayısı ilə Moskvanın xarici siyasət kursunun dəyişməsi ilə bağlı İrəvana təzyiqidir.

Digər mühüm məqam: Ermənistan cəmiyyətini inandırmaq ki, Qərbə istiqamət Moskvadan daha yaxşıdır. Axı bu məsələ ilə bağlı şəxsən Paşinyana suallar yoxdursa, Ermənistan əhalisinə suallar var. Ona görə də Qərb Ermənistana aydın siqnallar verməlidir ki, o, regionda sülhün həqiqətən yüksək keyfiyyətli təminatçısı kimi çıxış etməyə hazırdır. "Birincisi, ABŞ və müttəfiqləri Ukraynanı dəstəkləməkdə daha qətiyyətli olmalıdırlar. Bundan əlavə, həm Ermənistan, həm də Azərbaycan üçün təhlükəsizlik təminatları hazırlanmalıdır. Ukrayna da bunu istəyir. NATO ilə münaqişənin hər iki tərəfinin təhlükəsizliyini təmin edən bir növ ikitərəfli sazişlər imzalanmalıdır. Belə olan halda Ermənistan biləcək: əgər sabah onlar güzəştə getsələr və müharibə başa çatsa, onların ərazisi artıq atəşə tutulmayacaq və insanlar ölməyəcək", - Buzarov izah edir. .

## Ermənistan: Rusiyaya qarşı yeni NATO cəbhəsinin yaranması

L'Antidiplomatico yazır ki, NATO Rusiya sərhədləri yaxınlığında yeni münaqişəyə başlamaq istəyir və Ermənistanda rusofobik əhval-ruhiyyəni qızışdırır. Məqalə müəllifi vurğulayır ki, Paşinyan öz xalqının qayğısına qalmır, o, yalnız şəxsi rifahı ilə maraqlanır, lakin alyansla oyun pis bitə bilər.

Bu yaxınlarda Ermənistanda Rusiyaya və onun rəhbərliyinə qarşı aparılan misli görünməmiş təbliğat sanki sehrbazın papağından çıxıb. Bu ritorika hakimiyyətin ən yüksək sferalarında eşidilir və erməni cəmiyyətində qeyri-sağlam ab-hava yaradır. Əslində bu hadisələrin arxasında duran "sehrbaz"ın əli aydın görünür.

Rusofobiyanın qəfil artması ölkənin çox qaranlıq hadisələr ərəfəsində göründüyü bir vaxtda baş verdi. Anti-Rusiya isteriyasına paralel olaraq, bir çox ekspertlərin qaçılmaz adlandırdığı Ermənistanla Azərbaycan arasında müharibə daha real vəziyyət almağa yaxınlaşır. Fakt budur ki, ölkənin baş naziri, qlobalist Nikol Paşinyanın anti-Rusiya hərəkətlərində NATO-nun əlini görməmək olmaz. Rusiyada hesab edirlər ki, Şimali Atlantika Alyansı Ukraynada qalib gələ bilməyəcəyini yaxşı bildiyi üçün Rusiya sərhədləri yaxınlığında yeni hərbi münaqişəyə başlamaq istəyir. Ukraynadakı münaqişənin əsas səbəbkarı olan NATO indi Kiyevdən sonra İrəvanı da almaq istəyir. Bu, tamamilə aydındır.

"Mən Ermənistanı Şimali Atlantika Alyansına qoşulmağa çağırıram, Nikol Paşinyan. Ermənistanı qoru, ABŞ prezidenti!" - NATO-nun Genişlənmə üzrə Avropa Komitəsinin rəhbəri Günter Fellinger X sosial şəbəkəsindəki səhifəsində bunları yazıb. Ermənistan xarici işlər nazirinin müavini Vahan Kostanyan daha sonra bildirib ki, "Ermənistan Alyansa qoşulmaq üçün dəvət almayıb, lakin İrəvan bu təşkilatla əməkdaşlığı davam etdirməyə hazırdır. Ermənistanla NATO arasında tərəfdaşlığa gəlincə, bu, bir neçə ildir ki, həyata keçirilir. Biz NATO ilə müxtəlif formatlarda əməkdaşlıq edirik və bu prosesi davam etdirməyə hazırıq".



NATO nümayəndəsinin bu xoşagəlməz təxribatı ilə yanaşı, Ermənistan Beynəlxalq Cinayət Məhkəməsinin (BCM) Roma Statutunu ratifikasiya etməyə hazırlaşır. TASS-ın Nazirlər Kabinetinin mətbuat xidmətinə istinadən bu yaxınlarda yazdığı kimi, sentyabrın 1-də Ermənistan hökuməti onu ratifikasiya məsələsinə baxılması üçün parlamentə göndərib. İrəvan bu müqaviləni 1998-ci ildə imzalasa da, işlər bundan irəli getməyib. Mart ayında Ermənistanın Ali Məhkəməsi sənəddə qeyd olunan öhdəliklərin ölkənin əsas qanunlarına uyğun olduğuna qərar verib. Rusiya Xarici İşlər Nazirliyi BCM-nin Moskva ilə bağlı mövqeyinə görə İrəvanın Roma Əsasnaməsinə qoşulmaq planlarını "tamamilə qəbuledilməz" adlandırıb. Yadınızdadırsa, Beynəlxalq Cinayət Məhkəməsi martda Vladimir Putinin həbsinə order verməşdi və eyni zamanda

## Paşinyan Roma Statutunu ratifikasiya etməyə hazırlaşır!

Amma Rusiya üçün xoşagəlməz hadisələr bununla bitmir: sentyabrın 11-dən Ermənistanda erməni-amerikan birgə hərbi təlimləri keçirilir. Bildirilir ki, məqsəd "ABŞ ilə münasibətləri yaxşılaşdırmaq və dərinləşdirməkdir". Vaşinqton hətta bu təlimlərin "müntəzəm" olacağını bildirib. "Tortun üstündəki çox acı albalı" odur ki, Paşinyan bu yaxınlarda həyat yoldaşı Anna Akopyanı Kiyevə "Birinci xanımlar" sammitinə göndərib. Böyük Britaniya, Yaponiya, Türkiyə, İsrail, Danimarka, Çexiya, İspaniya və digər Aİ ölkələrinin başçılarının xanımlarının qatıldığı forumun mövzusu: "Psixi sağlamlıq Gələcəyin kövrəkliyi və davamlılığı" adlanırdı. Anna Akopyan Kiyevə humanitar yardım aparıb. O, çıxışında ukraynalı uşaqlara tam dəstək olduğunu bəyan edib və onlar üçün hədiyyə olaraq min smartfon hazırlayıb. Bu, erməni müxalifətinin etirazına və narazılığına səbəb olub. Deputat Anna Mkrtçyan xatırladıb ki, "Qarabağda 44 günlük müharibə zamanı



Ukrayna Azərbaycana fosfor sursatı verib". Həmin vaxt bütün Kiyev "Qarabağ Azərbaycandır" yazısı olan plakatlarla örtülmüşdü.

Bakı Qarabağın statusunu bitmiş sayır, İrəvan da bu əraziləri Azərbaycanın bir hissəsi kimi tanıyıb. Paşinyan bunu özü də etiraf edib. Baxmayaraq ki, Ermənistanın baş naziri uğursuzluqlarında Rusiyanı günahlandırır, lakin onun belə addım atmağa məcbur edən, şübhəsiz ki, Moskva deyil. Bu, Paşinyanın işidir. Yəni belə bir vəziyyətdə Ermənistanın taleyinin necə olacağını təxmin etmək çətin deyil.

Rusiya prezidenti Vladimir Putin Şərq İqtisadi Forumu zamanı deyib ki, "Ermənistan rəhbərliyi Azərbaycanın Qarabağ üzərində suverenliyini mahiyyətcə tanıyıb". Praqa bəyanatında Ermənistan bu ərazinin statusunu kağız üzərində qeyd edib. Azərbaycan prezidenti İlham Əliyev də Qarabağın statusu məsələsinin artıq həll olunduğunu bəyan edib, Putin xatırladıb və bu, Rusiyanı İrəvanın üzərinə atdığı günahdan azad edir.

Rusiya Federasiyası Təhlükəsizlik Şurası katibinin müavini Aleksey Şevtsovun "Rossiyskaya qazeta"ya müsahibəsində deyib: "Biz ABŞ, Aİ, ayrı-ayrı Qərb dövlətləri və onların təsir agentlərinin Qarabağa müdaxilə etmək üçün davamlı cəhdlərini qeydə alırıq. Qarabağ nizamlanması prosesi, Rusiyanın bölgədəki mövcudluğunu gözdən salır və mövqelərini gücləndirir". Təbii ki, 1995-ci ildən Ermənistanda mövcud olan Rusiya hərbi bazası "kiməsə" rahatlıq vermir. Bu "kimsə" Moskvanı bölgədən sıxışdırıb çıxarmaq, onun yoxa çıxması üçün dolayı üsullardan istifadə edir. Təsadüfi deyil ki, dünyada ikinci ən böyük Amerika səfirliyi Ermənistanda yerləşir və o, xüsusilə erməni gəncləri ilə fəal işləyir".

## Paşinyan son addımları ilə atəşə yağ tökdü

İtaliyanın "La Repubblica" qəzetinə verdiyi son müsahibəsində o, Rusiyanın regionu tərk etdiyini bildirib. Kreml onun Qarabağdakı sülhməramlı missiyanın uğursuzluğu və Moskvanın Cənubi Qafqazdan çıxarılması ilə bağlı bəyanatları ilə razılaşmır. Rusiya prezidentinin mətbuat katibi Dmitri Peskov bildirib ki, "Rusiya bu regionun tərkib hissəsidir, ona görə də heç yerə getmə bilməz, Rusiya Ermənistanı tərk edə bilməz". Putinin mətbuat katibi onu da əlavə edib ki, "Rusiyada Ermənistanın özündən daha çox erməni yaşayır, onlar çox vətənpərvərdirlər və ölkənin inkişafına mühüm töhfə verirlər".

Amma görünür, bu, Ermənistan hakimiyyətini qətiyyən maraqlandırmır. İrəvanın Rusiya ilə düşmənçilik addımlarına daha bir neçə misal göstərmək olar, məsələn, sentyabrın 6-da Ermənistan Milli Assambleyasının sədri Alen Simonyan Rusiya Federasiyası Xarici İşlər Nazirliyinin əməkdaşlarının, o cümlədən XİN-in İnformasiya və Mətbuat Departamentinin direktoru Mariya Zaxarovanın ünvanına təhqiramiz ifadələr işlədib. Bundan sonra Simonyan erməni mətbuatına deyib ki, o, "hansısa katibəyə cavab vermək niyyətində deyil". Zaxarova özü bu hücuma yumorla reaksiya verib və sosial şəbəkə hesabında "planetdəki bütün katibələri" dəstəklədiyini bildirib.

Rusiya üçün qəbuledilməz daha bir fakt: Ermənistan təhlükəsizlik xidmətinin əməkdaşları sentyabrın 7-də rusiyayönlü bloger və fəal Mika Badalyan və Sputnik Ermənistanın köşə yazarı Aşot Gevorkyanı Gorus şəhərində qanunsuz odlu silah alverinə görə saxlayıb. Onların hər ikisi Ermənistan hakimiyyətini anti-Rusiya siyasətinə görə kəskin tənqid edib. Belə çıxır ki, gecə-gündüz kəşfiyyat orqanlarının nəzarətində olduqlarını yaxşı bilən tanınmış şəxslər birdən-birə silah alveri ilə məşğul olmaq qərarına gəliblər?

Rusiya Xarici İşlər Nazirliyinə qarşı təhqirlər və iki jurnalistin həbsi ilə əlaqədar Ermənistanın Moskvadakı diplomatik missiyasının rəhbəri Vaqarşak Arutyunyan dərhal Rusiya Xarici İşlər Nazirliyinə çağırılıb, ona sərt nota verilib. Ertəsi gün Ermənistanda həbs edilən iki nəfər sərbəst buraxılıb, lakin onlara "çox danışdıqlarını" başa salıblar.

Paşinyan "La Repubblica" qəzetinə müsahibəsində də ciddi açıqlama verib: "Təhlükəsizlik məsələlərində Rusiyadan asılılığımız strateji səhv idi". Bu sözlər Moskvada müəyyən qıcıq yaradıb. TASS-ın diplomatik mənbəsi hətta Rusiyanın Paşinyanın bəyanatlarının məzmununu və tonunu qəbuledilməz hesab etdiyini vurğulayaraq, Ermənistanı Qərbin alətinə çevrilməməyə çağırıb.



Rusiyada hesab edirlər ki, Paşinyanın siyasəti erməni xalqına qarşı yönəlib, o cümlədən onun bir müddət əvvəl verdiyi "Ermənistan Ukrayna münaqişəsində Rusiyanın müttəfiqi deyil, baxmayaraq ki, Qərb fərqli fikirdədir" ifadə də nəzərə alınmır. Amma onun sözlərinin əsl mənasını sətirlər arasında oxumaq çətin deyil: mənası odur ki, o, Ermənistanın təhlükəsizliyini NATO-ya "satır". Beləliklə, Paşinyan nəyin bahasına olursa-olsun, Moskva ilə İrəvan arasında nifaq salmağa çalışan Qərbi dəstəkləyir. Paşinyan erməni xalqının vecinə deyil, o, yalnız Amerikaya köçəndən sonra özünün zəngin və firavan gələcəyini necə təmin edəcəyini düşünür. NATO ilə oynayır. Ancaq bildiyiniz kimi, ilanla oynamaq təhlükəlidir, belə gözləmək lazımdır. Bunun sonu pis ola bilər. Bu, artıq başqa dövlətlərin başçılarının başına gəlib.

**V.VƏLİYEV**



# Dərs yükü duz yükünə çevrilərsə...





**Tədris ili başladı, onunla bərabər bütün valideynlərin qayğıları da başlamış oldu. Uşaqların dərs cədvəli, ev tapşırığı, repetitor tapşırıqları - hamısı üçün valideyn nəzarəti vacibdir. Məktəbli uşağı olan valideynlərin əksəriyyəti uşaqların ev tapşırığının çoxluğundan şikayətlənir.**



## Valideyn: "Uşağın yazmaqdan beli əyilir"

Ötən illərdə bu məsələ ilə bağlı çox yazmışıq, təhsil sisteminin uşaqları çox yükləməsindən bəhs etmişik. Bu məsələ ilə bağlı şikayətlənən valideynlərə sözlərini deməyə imkan da yaratmışıq. Valideynlər dərslərin çoxluğundan da şikayətlənirdi, yaşa uyğun olmadığından da.

Bu fikirdə olan valideynlər çoxdur, hamısı da uşağın dərs yükünün altında əzilməsindən şikayətlənir. Uşaqlar öz həyatını yaşamır, uşaqlıqlarından doymurlar. Məktəbli uşaqların əksəriyyəti yorğun, valideynlər isə stressli olur. Səbəbi də dərs yükünün çoxluğudur. Hər axşam evlərdə eyni problem var - bu tapşırığı kim edəcək? Əlində qələm, stol arxasında mürgüləyən uşaqlara baxanda, əslində, onların nə qədər böyük yük altında çırpındıqlarını görməmək mümkün deyil. Valideyn işə qarışanda isə məlum olur ki ev tapşırığı çox olmasından əlavə həmçinin uşaqların bilik səviyyəsinə və yaşına uyğun olmadığı məlum olur. Repetitorlar burda yada düşür...

## İlboyu dərs oxusa da...

Pedaqoq Qənirə Məmmədova deyir ki, 1-ci sinif şagirdi olan nəvəsi də dərslərdən şikayətlənir: "Haqqı var, axı bir neçə ay qabaq o hələ bağçada idi, məktəb dərsləri ona çox ağır gəlir. Oxuma-yazma həvəsi indi tələslə əvəz olunub, dərsə hazır olmasa gündəliyinə "2" qoyula biləcəyindən qorxur. Əslində, məsuliyyət hiss eləməsi yaxşıdır, amma dərs çoxluğu onları yorur. Müəllimlik də burada heç nə yoxdur, mən də müəlliməm və bizə verilən proqram belədir, tədris planına riayət etməliyik. Dərsdən əlavə testlər də verilir, yeni sistemlə uşaqların imtahan edilməsi də bu testlər vasitəsi ilə aparılır".

Əslində, bu problemin yaranmasının bir səbəbi də Azərbaycanın təhsil sistemindəki əsas problemlərdən biri olan siniflərdəki şagird sayının çoxluğudur. Müəllim hər uşaqla fərdi qaydada işləyə bilmədiyi üçün tapşırıqların əksəriyyəti evə verilir. Hər gün tapşırıqdan əlavə xüsusi testlər də həll edilməlidir, bunun üçün hər şagirddən ayda 2 manat pul tələb edilir, o pul uşaqların hər fəndən imtahan edilməsi üçün fərdi testlərin və evə verilən dərsdənkənar vəsaitin çapına xərclənir.

## Pedaqoq: "Bizdən çox şey asılıdır"

Pedaqoq Təranə Şirinova deyir ki, bu işdə müəllim yaradıcılığı vacibdir: "Ədalət deyilən bir şey var, mən bunu qorumağa çalışıram. Tutaq ki, uşaq summativi edir, neçə sual düz yazırsa mən ora iki bal da əlavə edirəm və ya iki balı oradan silirəm. Yəni bir bal davamiyyət, bir bal da gündəlik fəaliyyət. Uşaq gündəlik dərsdə fəal olmayıbsa bir bal cavabını silirəm, və ya yaxşıdırsa əlavə edirəm. Testin altında elə qeydiyyat aparıram. Desələr ki, bu qanunsuzdur, uşağın cavabında dəyişiklik edəcəm. Axı belə etməsəm ədalətsilik olur. Müəllim özü balansı qoruya bilər, axı o bilir şagirdinin nəyə qadir olduğunu. Tutaq ki, sistemimizdə çatışmazlıq var, bəs müəllimin vicdanına nə olub? Müəllimdən bu məsələdə çox şey asılıdır."

Uşaqların dərs yükünün ağır olması fikri ilə razılaşan pedaqoq Sədaqət Heydərova deyir ki, dərslər uşaqların yaşına uyğun çəkidə deyil: "Məktəbdə 6-7 saat dərsdə oturan məktəbli, ən azı 6-7 saat da evdə dərs hazırlamalı olur. Nəticədə şagird artıq dərəcədə yorulur. Bu yorğunluq təbii olaraq onu dərsdən uzaqlaşdırır, dərs yükünün ağırlığı şagirdin "gözünü qorxudur". Praktik olaraq sutka ərzində şagirdin dincəlməyə, oynamağa, gəzməyə zamanı olmur. Üstəlik, keçilən dərslər şagirdin yaşına və dünyagörüşünə uyğun deyil. Məsələn bir dəfə Avropada yaşayan bir tanışım dedi ki, sizin məktəblərdə 4-cü sinif şagirdinə keçdiyiniz dərslər burada 8-9-cu sinifdə keçirilir".

Pedaqoq deyir ki, şagirdə çox bilik deyil, mümkün qədər az və zəruri bilgiləri vermək lazımdır: "Son illər təhsilimizin acınacaqlı durumu göz önündədir. Nəticələr göstərir ki, şagirdlərin dərs yükünü artırdıqca mənimsəmənin keyfiyyəti aşağı düşür. Diplomluların sayı artsa da, savadlıların sayı azalır. Ümumiyyətlə, təhsilimizin gəldiyi son vəziyyət bu sahədə atılan addımların, tətbiq edilən sistemlərin uğurlu olmadığından xəbər verir. Və bütün bunlar zəruri edir ki, təhsilimizdə əsaslı dəyişikliklər və islahatlar aparılmalıdır".

## Valideynlər uşağın əvəzinə yazır...

Müəllimə ev tapşırığı yükünün çox olmasından da danışdı. Dediyinə görə, uşaqların ev tapşırığını tam etməməsi onların özünə güvən hissini zəifləDir: "Tutaq ki, 1-ci sinifdə oxuyan uşaq üçün evə 3 səhifə tapşırıq verdim. Uşaq onun 2 səhifəsini edib və valideyn haqlı olaraq 3 səhifə tapşırığın o yaşda uşaq üçün çox olduğunu düşünür və yarısını yazdırmır. Sabah uşaq bütün sinif yoldaşlarının ev tapşırığının hamısını etdiyini görəndə özündə günahkarlıq hiss edəcək. O biri uşaqların valideynləri də, əslində, siz düşündüyünüzü düşünür, uşağa bu tapşırığın çox olduğunu hesab edir və tapşırığın yarısını özü yazır, bir az uşaq xətti ilə. Müəllimi aldada biləcəyini düşünür, amma illərin pedaqoqu kimi bunu həmin dəqiqə anlayırıq, amma başa düşürük ki, uşaqlar yorulduğu üçün valideyn kömək edib. Bizim üçün də bu vəziyyət normal deyil, amma plan necədirsə elə işləmək məcburiyyətindəyik".

Pedaqoq deyir ki, uşaqların dərsini valideynlər etməklə ona yaxşılıq əvəzinə zərər edir: "Qoyun 3 səhifənin 2-sini yazsın, 1-i qalsın, amma özü yazsın. Sabah sinifdə o biri uşaqlar "mən tapşırığın hamısını etmişəm" deyəndə övladınız utana bilər, bunu da ona başa salın, deyin ki, müəllim özü bilir ev tapşırığını kim özü edib, kim valideyn köməyi ilə edib. Beləcə onun özünə güvənmək hissini geri qaytara biləcəksiniz. Zamanla o 3 səhifəni sevərək həll edəcək. Siz heç bir halda onu məcbur etməyin, belə olsa dərslərə ikrah yarada bilərsiniz".

## Ev tapşırığını nə vaxt etməli?

Bir çox valideynin fikrini qarışdıran bir problem də ev tapşırığının hansı saatda edilməsidir. Pedaqoqlar bunun üçün ayrıca saat təyin etməyi doğru hesab etmir. Çünki uşaqlar 1-ci və 2-ci növbədə oxumasından asılı olaraq fərqli saatlarda oyun oynamaq istəyirlər. Məktəbdən gələr-gəlməz uşağı ev tapşırıqlarını etməyə məcbur etmək də doğru deyil. Tapşırıq vaxtını təyin etməyi uşağın öhdəsinə buraxmaq daha doğrudur. Bu zaman məktəbli öz bioloji saatına uyğun olaraq vaxt seçir. O oyun oynamaq istəyəndə oynayır, dərs hazırlamaq vaxtı gələndə isə məsuliyyətin öz üzərində olduğunu xatırlayır.

Uşaq dərsini hazırlayanda evdə lazımı mühit yaradılmalıdır. Evin digər sakinləri cəlbedici, maraqlı məşğuliyyət seçməməlidir, əks təqdirsə uşağın fikri dərsində deyil, onlarda olacaq. Mümkünsə sakitliyi qorumalı, fikrinin cəmləmək üçün ona imkan yaradılmalıdır.

## Uşağın yanında şikayətlənməyin

Doğrudur, təhsil sistemini dəyişə bilməsək də, uşaqlarımızı yönləndirə bilərik. Uşaqların təhsil həyatı yorğun keçirsə evdə bu yorğunluğu çıxarmaq üçün onunla oyunlar oynamaq lazımdır. Bunlar kompyuter, telefonda oynanan oyunlar deyil, ənənəvi şahmat, futbol, basketbol kimi oyunlardır. Şəkil çəkmək ruhu dincəldir, uşaqlar dərsdən yorulanda şəkil çəkməsinə, oyun oynamasına şərait yaradın ki, zehinləri dincəlsin. Uşaqlar dərs yükünün altında duz yükünün altında əzilən kimi əzilməsinlər.

Dərslərin çoxluğundan şikayətlənirsinizsə bunu uşağın yanında etməyin, müəllimlə əlaqə saxlayın. Uşaq sizin dilinizdən də dərsin çox olduğunu eşitsə daha az dərslə kifayətlənəcək, bu isə sinifdə yaşıdlarından geri qalması deməkdir. Axı sistem ümumimidir və bütün uşaqlar eyni tədris planına görə oxuyur. Kimsə az, kimsə çox oxuyanda bu qiymətlərdə özünü göstərir.

Uşağın məktəbi, müəllimi və dərslərini sevməsi üçün valideynin üzərinə də böyük məsuliyyət düşür. Uşağa məktəbin önəmini, təhsilin vacibliyini və müəllimin rolunu, habelə bu gün etdiyi dərslərin gələcək həyatında və işində necə köməyinə yetəcəyini başa salın.

***Lalə Mehralı***



## "Azərbaycan separatçılara uzun müddət dözmək fikrində deyil"

"Azərbaycan 10 noyabr 2020-ci ildə imzalanan üçtərəfli bəyanatdakı öhdəliyinə hörmətlə yanaşır. Ancaq bu o demək deyil ki, Azərbaycan bu gün Rusiya sülhməramlılarının nəzarəti altında olan ərazidə dövlətçiliyimiz əleyhinə yönələn, Azərbaycanın suveren hüquqlarına riayət etməkdən imtina edən terrorçu qrupların özbaşınalığına dözmək fikrindədir". Bu sözləri SİA-ya açıqlamasında millət vəkili Aydın Mirzəzadə deyib.

Onun sözlərinə görə, həmin coğrafiya Azərbaycan ərazisidir və orada yaşayanlar qanunlarımıza tabe olmalıdır: "Məhz bu səbəbdən Azərbaycan Laçın şəhərində sərhəd-keçid məntəqəsini qurdu. Çünki Azərbaycan Ermənistanın Laçın dəhlizindən sui-istifadə etdiyinin, Qarabağ iqtisadi zonasına qeyri-müəyyən sayda texnika və hərbi qüvvə yerləşdirdiyinin şahidi olmuşdu. Bunlar ərazilərimizdə mina basdırır, hərbi postlarımıza hücum edirlər. Bu baxımdan Laçın sərhəd-keçid məntəqəsinin yaradılması prosesləri müəyyən qədər nəzarət altına almağa imkan verdi.

Ərazilərimizdə mövcud olan separatçı qüvvələr bilməlidir ki, onların fəaliyyəti əbədi deyil və Azərbaycan onlara uzun müddət dözmək fikrində də deyil. Azərbaycana qarşı hər hansı bir təxribat törədiləcəksə, qarşılığında layiqli cavab veriləcəkdir".

***Səbinə Hüseynli***

## "Tacikistanla Orta Asiya ölkəsi kimi əlaqələrin gücləndirilməsi önəmlidir"

### DEPUTAT MÜNASİBƏT BİLDİRDİ

"Cənab Prezident İlham Əliyevin Tacikistana səfəri böyük əhəmiyyət kəsb edir. Bu gün Azərbaycan Orta Asiya respublikaları ilə əlaqələrini genişləndirir, daha da gücləndirir". Bu sözləri SİA-ya açıqlamasında millət vəkili Ceyhun Məmmədov deyib.



Onun sözlərinə görə, Tacikistanla Azərbaycan bir sıra istiqamətlər üzrə münasibətlərini inkişaf etdirir: "Əlaqələrin bu minvalda inkişafı isə dövlətimizin daha da güclənməsində mühüm rol oynayacaq. Baş tutan görüşlərdə də bir sıra məsələlər müzakirə edilib. Azərbaycan bir sıra türk respublikaları ilə Türk Dövlətləri Təşkilatı çərçivəsində əməkdaşlıq edir, münasibət qurur. Lakin bu gün Tacikistan TDT-ə üzv olmasa da Orta Asiya ölkəsi kimi əlaqələrin gücləndirilməsi önəmlidir. Hesab edirəm ki, cənab Prezidentin səfəri də əlaqələrin daha sürətlə inkişafına müsbət təsir göstərəcək".

ARAŞDIRMA

# Marafonlar insanların cibinə necə girir?

***Son zamanlar bir sıra psixoloqlar arasında müxtəlif marafonlar təşkil edənlərin sayı artıb. Bəzilərininki həqiqətən faydalı olsa da, bir qisim var ki, bunu sırf pul xatirinə edərək insanları aldadır. Baxmayaraq ki, texnologiya dövrüdür və hər bir şeyi araşdırmaq mümkündür, amma hələ bu saxtakarların tələsinə düşənlərin sayı artmaqda davam edir. Üstəlik, aldanan şəxslər tərəfindən bu marafonlara ciddi məbləğdə vəsait də qoyulur. Bir çoxları deyir ki, hətta bu marafonlar insanda asılılıq yaradır. Yəni, bir dəfə özünü bu bəlaya salan bir daha ondan ayrıla bilmir. Sanki bircə dəfə bu marafona qoşulan insan, əgər növbətilərə qoşulmasa uğursuz olacağını, başına bir iş gələcəyini belə düşünür.***



### Bəs, nədir bu marafonlar? Nə işə yarayır? Hansı mənfi və müsbət cəhətləri var? İnsanlar necə aldadılır?

SİA mövzu ilə bağlı araşdırma edib.

### Dünyada Marafon terapiyası nədir və necə tətbiq edilir?

Marafon müalicəsi dünyanın bir çox ye-



rində müxtəlif terapiya üsullarında istifadə edilir və tədqiqata əsaslanan effektiv yanaşmadır. Marafon terapiyası ənənəvi terapiyadan fərqlidir. Ənənəvi üsulla müqayisədə müalicənin vacib hissəsini və ya hamısını daha sürətli və qısa müddətdə tamamlamaq mümkündür.

Ənənəvi terapiyada insan həftədə bir dəfə 1 seans terapiyaya gəlirsə, Marafon terapiyasında seanslar 2 seans olmaqla ardıcıl günlər keçirilir. İştirak ediləcək günlərin ümumi sayı psixoloqun tövsiyəsi ilə müştə-



rinin özü tərəfindən müəyyən edilir.

Marafon terapiyasından sonra ənənəvi üsula keçir və həftədə bir dəfə seanslara davam edirlər. Coğrafi məsafəyə görə marafon terapiyasına üstünlük verilirsə, həftəlik seanslar onlayn keçirilir.

Terapevt, uyğun görüldüyü zaman seans tarixləri arasında ara verərək pasienti təqib edir. Sağlamlıq vəziyyəti çox uzun müddət müşahidə olunsa belə, terapiya tamamilə dayandırılmır.

### Marafon terapiyasından kimlər faydalana bilər?

- Tez müalicə almaq istəyənlər;
- Coğrafi cəhətdən uzaqda olanlar.

### Marafon terapiyasının üstünlükləri nələrdir?

- Problemi daha tez başa düşmək;
- Stabilizasiya, gündəlik həyat keyfiyyətinin sürətlə artması;
- Sağlamlığa inamın sürətlə formalaşması və bu vəziyyətin müalicəyə töhfəsi.

### Marafon terapiyası gündə 2 ardıcıl seansdan çox edilə bilərmi?

Dissosiativ şəxsiyyət pozğunluğunun müalicəsi sıx bir zehni fəaliyyətdir. Ardıcıl 2 seansdan çox etmək yorucu olacağı üçün bir gündə maksimum 2 seans edilə bilər. Cütlük terapiyası gündə 8 ardıcıl seansa qədər edilə bilər.

**Psixoloq Ruslan Kamilov:** "Ölkədə psixoloqların fəaliyyətinə nəzarət edən, onların fəaliyyətini tənzimləyən, filtirizasya qurum-



lar və doğru-düzgün qanunlar yoxdur. Odur ki, biz kimisə deyə bilmərik və ya kimisə bu məsələ ilə bağlı qınaya bilmərik.

Hər zaman pasyentlərimə bunu deyirəm. Getdiyiniz psixoloq, psixoterapevt, psixatrların təhsilləri ilə aldıqları təlimlərlə maraqlanın, neçə illik fəaliyyətləri var soruşun. Bu, qeyri-etik deyil.

Yalançı psixoloqlar az idi ölkədə, bir də başımıza yaşam koçları kəsiliblər. Özləri də bilmirlər ki, tam ixtisasları nədir.

Heç kim heç kimi hansısa xidmətə məcbur etmir. İnsanlar özləri maariflənməlidirlər. Kimin qəbuluna getdiklərini özləri araşdırmalı, xidməti düzgün təşkil edən mütəxəssisi ayırd etməyi bacarmalıdırlar".

**Psixoloq Zeynəb Eyyubova:** "Mən hələ ki, heç bir marafon təşkil etməmişəm. Açığı



buna vaxtım da yoxdur. Yalnız psixologiyadan bilgiləndirmə ilə bağlı dərs sistemi və kurslar təşkil etmişəm. Düşünürəm ki, insanlar artıq maariflənməlidir. Əgər bir psixoloq marafon təşkil edirsə, ilk olaraq onun təhsili və fəaliyyəti araşdırılmalıdır.

Bəzən insanlar simvolik rəqəmlərdən ibarət olan 5-10-15 AZN-lıq marafona qatılırlar. Bunun ciddi fəsadları olur. Təəssüflə qeyd edirəm ki, biz bunlara nəzarət edə bilmərik. Hər şeyin pisi-yaxşısı olduğu kimi, bu marafonların da mənfisi və müsbəti var".

**Yazıçı-kulturoloq, analitik ekspert Aydın Xan Əbilov:** "Azərbaycanda bir çox sahələrdə boşluqlar özünü göstərməkdədir. O cümlədən, səhiyyə, tibb və psixologiya sahəsi bura aiddir. Belə ki, istər orta, istər ali,



istərsə də praktik psixologiya ilə məşğul olan şəxslərin demək olar ki, böyük əksəriyyəti pullu kurslardan diplom və sertifikat almış adamlardır. Bu şəxslərin Səhiyyə Nazirliyi tərəfindən ciddi sertifikasiyasını tələb edirik. Onların biliyi yoxlanılmalı və komissiya təşkil edilməlidir. Özünü bu cəmiyyətə sırımaq istəyən psixoloqlar aşkar edilməlidir. Millətin başında turp əkən psixoloq, yaşam koçu və s. tip şəxslər ciddi yoxlanmalıdır.

Bütün dünyada psixoloqlara böyük ehtiyac olduğu kimi, bu, Azərbaycanda da belədir. Məsələn, keçmişdə falçılıq və cadugərliklə məşğul olanlar indi psixoloq və yaşam koçu olub. Onlar sərvət sahibi olmaq üçün marafonlar təşkil edir. Əlbəttə, onların içərisində savadlı və tanınmış mütəxəssislər də var. Amma savadsızlar və heç öz adını belə yaza bilməyənlərin sayı da kifayət qədərdir.

"Motivasiyaedici" marafonlardan artıq insanların özü şikayətçidir. Bu cür insanların fırıldağına düşənlər vaxtilə müxtəlif oyunlarda öz pullarını qoymuş, muncuq əməliyyatlarında başı aldadılmış şəxslər indi də bu psixoloqların tələsinə düşürlər. Bu məsələdə cəmiyyətin özündə də təqsir var. Əgər intellektual səviyyəsi, psixoloji durumu və internetdən faydalanıb öz təhsilini artırmaq kimi yollar varkən, hansısa psixoloqun arxasınca düşməyin yeri yoxdur.

Psixologiya elmi çox ciddi bir sahədir və həmin elmə nəzər saldıqda dünyada ən çox inkişaf etmiş, ən bahalı xidmət növlərindən biridir. Azərbaycanda bir çox sahələrdə olduğu kimi, bu sahəni də inhisara almış fırıldaqçıların səyləri nəticəsində artıq bu elmə olan inam sarsılıb. Baxmayaraq ki, bizdə psixoloqa ehtiyacı olan uşaq və böyüklərin sayı get-gedə artmaqdadır. Bizim öz ixtisasını, sözün əsl mənasında, bilən ailə və pedaqoji psixoloqlara ehtiyacımız var.

Böyük bir psixoloji bazar var və bu bazarda kim nə istəyir öz piştaxtasına qoyaraq insanları aldatmaqla məşğuldurlar. Düşünürəm ki, Daxili İşlər Nazirliyi, Səhiyyə Nazirliyi və digər dövlət qurumları bu məsələ ilə ciddi məşğul olmalıdır. Çünki bir cəmiyyətin psixologiyası həm də onun ümumi psixoloji durumu deməkdir. Əgər biz bu sahədə boşluqları doldurmasaq, vəziyyət bir qədər də çətinləşəcək.

Son zamanlar artıq virtual aləmdə də "psixoloqların və psixoloji xidmət göstərən şəxslərin" artdığını görürük. Bizim insanlar da oxuduqları hər bir şeyə inanırlar. Dünyanın hər yerində psixoloqlar həm də motivator kimi xidmət göstərirlər. Bizdə isə antimotivatorluq dəbdədir".

### İndi isə gəlin nümunə üçün bir sıra marafonlara nəzər yetirək:

"Qəlbini şəfalandır" marafonunda insanlara verilən ümidlər: İstənilən münasibətin sağlam olması üçün, özümüzlə və başqaları ilə münasibətlərimiz möhkəm təməllər üzərində qurulmalıdır. Bu əsaslar şəxsi sərhədləri qorumaq və həyata obyektiv münasibət göstərməkdən keçir. Bu marafonda siz hər bir mövzuda bacarıqların necə əldə olunacağını ətraflı öyrənəcəksiniz.

"Arzulara çatmaq" marafonu: Arzularımızın gerçəkləşməsi üçün həm ruhumuz, həm bədənimiz, həm də zehnimizdə onun gerçəkləşməsini istəməlisiniz. Bu marafonda tapşırılanları yaşam tərzi kimi mənimsədikdə mümkünsüz xəyallarınızın gerçəkləşəcəyini görəcəksiniz.

Daha minlərlə belə marafonu misal çəkmək olar.

Psixoloq Nərgiz Hüseynova: "Bəli, hazırda bütün dünyada psixoloji və energetik marafonlar vüsət alır. Bunların içində, əlbəttə ki, saxtaları da var. Bu da insanların daxili ehtiyacından irəli gəlir. Çünki insanlar həyatlarında dəyişiklik etmək istəyirlər. Əgər bir insana bu vacibdir və lazımdırsa xeyirli



marafonlara qoşulmaq, düzgün prosesləri yerinə yetirmək, özünü inkişaf etdirmək və öz üzərində işləmək çox tərifəlayiqdir. Hər insana lazımlı bir prosesdir. Amma insanları səhv yollara yönəldirlərsə, bunun zərəri də ola bilər. Səbəb isə işin peşəkar mütəxəssis tərəfindən icra olunmamasıdır.

Marafonların müsbət tərəfi də odur ki, insanlar özünü daha yaxşı tanımağa başlayır, öz daxili dünyasına daha çox zənginlik qatır və inkişaf edir. Yaxşı marafon insanlara yaxşı təsir edə bilər.

Amma yanlış insanlar tərəfindən edilən marafonlar insanları depressiya da sala bilər".

***Ayşən Vəli***

# Xəstəlikləri gülüş və qəhqəhə ilə sağaldırlar

## Ürəkdən gülmək şəkərli diabetdən də qoruyur, bədxassəli şişlərdən də…

***Aparılan araşdırmalara görə, ürəkdən gülmək psixoloji və fizioloji baxımdan sağlamlıq gətirir. Səhərlər ürəkdən qəhqəhə ilə gülən insan hər dəfə bədənindən 10 qram artıq yağ atır. Beləcə hər gün davamlı gülüş bədəni artıq çəkidən qoruyacaq. Unutmayın ki, yeni bir günə necə başlayırsınızsa bütün günü əhvalınız o cür olacaq. Ona görə günə hərəkətli, xoşbəxt və sevinc dolu başlayın, ürəkdən güldüyünüz bir neçə dəqiqə sizə əlavə ömür də bəxş edəcək.***

### Gülüş xoşbəxtlik hormonunu artırır

Qəhqəhə ilə gülmək insanın xoşbəxt olduğunu göstərir, xoşbəxt bir insanın bədəni və bütün orqanizmi də xoşbəxtlik hormonu ilə zəngin olur, beləcə orqanizm özünü gümrah hiss edir. Araşdırmalara görə ürəkdən gələn bir qəhqəhə üz, sinə, daxili orqanlar və həzm sistemindəki əzələləri hərəkətə gətirir. Bununla əlaqədar olaraq həzmetmə sürətlənir və nəfəs darlığı yox olur.

Gülmə əsnasında əzələlər daha çox hərəkət etdiyi üçün bədən idman etmiş olur. Ağrıya dözüm məhz gülməyi çox sevən insanlarda daha çoxdur. İmmunitet sisteminə gülüşün təsiri isə artıq bir neçə dəfə araşdırmalar nəticəsində sübut edilib. Qəhqəhə zamanı mərkəzi sinir sisteminiz hərəkətlənir, beyin stress hormonlarını uzaqlaşdıraraq xoşbəxtlik hormonu ilə əvəzləyir.

Gülüş orqanizmdə xoşbəxtlik hormonu olan endofrini çoxaldır, qəhqəhə ilə bədəniniz bir növ gimnastika edir. Qəhqəhə sizin bir gün boyunca pozotiv olmağınıza səbəb olur, işdə uğurlarınızı artırır. Gülməklə qəzəb, qorxu və kin hisslərini uzaqlaşdırmış olursunuz.

### Gülüşü sosial layihə kimi qəbul edin

Gün ərzində həm evdə, həm işdə müxtəlif problemlərlə qarşılaşırıq, bizi yoran, özümüzdən çıxaran saysız-hesabsız problemlərin olduğunu inkar etmək doğru deyil. Sosioloqlar deyirlər ki, probleme hansı bucaqdan baxmaq işin ən vacib qismidir. Problemlər sizi yormasın,



çünki psoxoloji yorğunluq həyatdan küsməyin birinci əlamətidir. Bütün problemlərə rəğmən sahib olduğumuz hər şeyə görə şükür edib gülümsəmək hər bağlı qapının açarıdır.

Yaxşı olar ki, gülüşü sosial bir layihə kimi qəbul edin, hesab edin ki, siz bu layihə üçün xüsusi öhdəlik götürmüsünüz, hər gün onu yerinə yetirməlisiniz. Həyatınızı elə qurun ki, sizi üzən, kədərləndirən hadisələrdən maksimum uzaq olasınız. Unutmayın ki, gülüş səmimiyyət, doğmalıq kimi hisslərlə qardaşdır. Qəhqəhə beyindəki güvənsizlik hissini uzaqlaşdıraraq sizi ətrafınızdakı in-



sanlarla doğmalaşdırır. Xoşbəxtlik digər duyğu və hisslər kimi qarşıdakı insana sirayət edə bilir.

### Xoşbəxt insanlar kökəlmir





Xoşbəxtliyin fərdlərin fizioloji və psixoloji sağlamlığı baxımından olduqca çox xeyri var. Psixoloji gərginlik keçirən, stress yaşayan insanlarda kortizol hormonu artır, bu artım xüsusilə şokalada və duzlu qidalara həvəs yaradır, bunun nəticəsində isə insan piylənməyə meyllənir. Ətrafınızda depressiyaya girəndə daima yemək istəyən insanlar mütləq var. Xoşbəxt insanlar ifrat qida istehlak etmirlər, necə deyərlər, onlar hissləri və xoşbəxtlikləri ilə doyurlar.

Ürəkdən gülmək orqanizmi rahatladır, beyni sakitləşdirir, insanlara zövq və ümid verir, problemləri və kədəri unutdurur. Sevgi və hörmətin, özünə inamın, ünsiyyətcil olmanın, qorxunu azaltmanın və asan münasibət qurnamın yolu gülümsəməkdən keçir. Acıqlı insanlar həm ətraf-



larına, həm də özlərinə zərər verirlər, bütün günü qaşqabaqlı gəzərək ətrafda mənfi enerjilərin toplanmasına, neqativ enerjinin yığılmasına səbəb olurlar. İnsanlar gülümsəməklə özlərinə inamı gücləndirirlər, cəmiyyət özünə inanan insanlarla dolu olduqda isə hər şey qaydasında olur, insanlar daha asan münasibət qurur.

### Bir gülüş yetər...

Alman professoru Heiner Uberin "Gülmə prinsipi" adlı kitabında bildirilir ki, gülməyin nə qədər xeyirli olduğunu bilsəydilər insanlar hər gün durmadan gülərdilər. Alim yazır ki, ən yaxşı həkim insan özü ola bilər, amma bir şərtlə ki, hər gün gülsün, qəhqəhə çəksin. Uber gülüşün insan orqanizminin düşməni olan xəstəliklərə qənim kəsildiyini yazır.

O yazır ki, daim gülən insanların cinsi həyatı yolunda olur, gülüş onları soyuqdəymədən qoruyur. "Şəkər xəstəliyi gülüşdən qorxur" deyən professor əsrin bəlasına tutulmamaq üçün özünün də hər gün səbəbli-səbəbsiz bol-bol güldüyünü etiraf edir. Bundan əlavə o yazır ki, qəhqəhə təzyiqi normada saxlayır, orqanizmdəki ağrıları azaldır, stresi yox edir, xoşbəxt edir, qəzəbi uzaqlaşdırır, həm fiziki, həm psixoloji gərginlikdən xilas edir, həzm prosesini yaxşılaşdırır, bədxassəli şişlərlə mübarizə aparır.

### Bütün neqativ hadisələrə rəğmən gülün

Ən yaxşı dərman gülüşdür, bunu əsrlərin sınağından keçmiş ata sözləri, el məsəlləri də təsdiqləyir. Məşhur bir məsəldə deyildiyi kimi, əgər ömrünü iki dəfə artırmaq istəyirsənsə yediyinin yarısı qədər ye, amma indi güldüyünün 3,4, lap 10 dəfə artığını gül.

Məlumat üçün qeyd edək ki, əgər gündə 10 dəqiqə qəhqəhə ilə gülürsünüzsə hər dəfə 30 kalori itirirsiniz. Əgər artıq çəki ilə bağlı probleminiz varsa o zaman gülməyi həyatınızın bir vacib işinə çevirin.

Həyatımızda olan bütün neqativ hadisələrə qarşı inadla gülün, çünki siz güldükcə ətrafınızda yaranan müsbət aura sizi həqiqətən rahatladacaq, xoşbəxt edəcək. Üstəlik güldükcə həm bədəninizdəki artıq çəkidən qurtulacaqsınız, həm də orqanizminiz inanılmaz olsa da bütün xəstəliklərə "əlvida" deyəcək. Siz sadəcə hər gün ürəkdən qəhqəhə ilə gülün.

***Lalə Mehralı***

## "15 sentyabr Azərbaycan-Türkiyə qardaşlığının ən gözəl nümunəsidir"

"1918-ci il sentyabrın 15-də Azərbaycan və Osmanlı hərbçilərindən qurulmuş Qafqaz İslam Ordusu tərəfindən Bakı şəhərinin azad edilməsi şərəfli tariximizin parlaq səhifələrindən birinə çevrildi". Bu sözləri SİA-ya açıqlamasında millət vəkili Musa Qasımlı deyib. Onun sözlərinə görə, bu, Azərbaycan və Türkiyə silah qardaşlığının tarixindən ən gözəl nümunədir:"Şəhərimiz düşməndən azad edildi, Azərbaycan xalqı azad nəfəs aldı, hökumət paytaxta köçdü və qısa müddət ərzində şəhərdə qayda-qanun yaradıldı. Bir neçə il sonra Azərbaycan dövlət müstəqilliyini itirsə də, ağır Stalin represiyaları dövründə belə Azərbaycan xalqı Qafqaz İslam Ordusu əsgərlərinin məzarlarını qoruyub, saxladı.Dövlət müstəqilliyi bərpa edildikdən sonra ölkəmizin müxtəlif şəhərlərində türk əsgərlərinin məzarları bərpa edildi, üzərində Azərbaycan və Türkiyə bayraqları qaldırıldı.Ulu Öndər Heydər Əliyevin hakimiyyəti illərində İslam ordusu xatirəsinə hər bir azərbaycanlı üçün müqəddəs olan, 1918-ci il mart soyqırımı qurbanlarının, 1990-cı il 20 Yanvar qətliamının və birinci Qarabağ müharibəsində həlak olan şəxslərin dəfn olunduğu



Şəhidlər Xiyabanında abidə ucaldıldı. Bu gün həmin abidə Azərbaycan-Türkiyə qardaşlığının rəmzlərindən biri və anım yeridir. Bir millət, iki dövlət olan, Azərbaycan və Türkiyə cənab Prezidentin söylədiyi kimi tək yumruğa çevrilib".

***Səbinə Hüseynli***

# Gültəkin Hacıbəyli Əli Kərimliyə imicmeykerlik edəcək

## Avropa Parlamentinin üzvləri ermənipərəst dairələrin təsirindən çıxa bilmirlər

Mövcud fakt və reallıq ondan ibarətdir ki, bu gün dağıdıcı müxalifət funksionerlərinin fəaliyyətləri sosial şəbəkələrdən uzağa getmir. Yəni, siyasi varlıqları ancaq mətbuatda və sosial şəbəkələrdə görünür. Bu da onunla bağlıdır ki, cəmiyyət onları qəbul etmir. Səbəbi də məlumdur: Dövlətçiliyə qarşı qarayaxma kampaniyası aparılır, xalqımızın heysiyyatına toxunan açıqlamalar verir, statuslar paylaşırlar. Hansı saat baxsanız sosial şəbəkələrdə AXCP sədri Əli Kərimlinin, "Milli Şura"nın rəhbəri Cəmil Həsənlinin, "Milli Şura"nın üzvləri Gültəkin Hacıbəylini, Tofiq Yaqublunu, Fuad Qəhrəmanlının orada vurnuxdularını görmək olar. ABŞ dövlət departamentinin maliyyəsi ilə yayımlanan və Sevinc Osmanqızının sahibi olduğu intenet TV-də dağıdıcı müxaliflərə dəstək verir, onların erməni maraqlarına uyğun gələn fikirlərini tirajlayır.





### Azərbaycana qarşı qarayaxma kampaniyasının müzakirələrində S.Osmanqızı da iştirak edir

Son günlər Sevinc Osmanqızı məlum cinayət əməlinə görə, həbs olunan Azərbaycan Demokratiya və Rifah Partiyasının sədri Qubad İbadoğlunun müdafiəsi ilə bağlı verilişlərə daha çox üstünlük verir. Bu da ondan irəli gəlir ki, ABŞ-dakı Kristofer Smit kimi ermənipərəst senatorlar ona bu istiqamətdə fəaliyyətini qurmaq göstərişini veriblər. S.Osmanqızı da az qala bütün verilişlərini Ermənistandakı revaşistlərin mövqelərinə haqq qazandırmağa və Q.İbadoğluna dəstək verməyə həsr edir. Məlumatlara görə, senatorlar Bob Menendesin, Kris Van Hollenin və konqresmen Kris Smitin Q.İbadoğlunun müdafiəsi adı altında Azərbaycana qarşı qarayaxma kampaniyasının müzakirələrində S.Osmanqızı da iştirak edir. Sonradan yekun fəaliyyət istiqamətləri barədə məlumatlar S.Osmanqızı vasitəsi ilə Ə.Kərimliyə çatdırılır. Ə.Kərimli aldığı tapşırıqların ciddiliyini araşdırmadan trolları vasitəsi ilə sosial şəbəkələrdə müzakirəsini təşkil edir. Hazırda əsas iş Avropa Parlamentinin Q.İbadoğlunun azad edilməsi haqqında qərar qəbul etməsi iddiası ilə çıxış edilmələridir.

Ə.Kərimlinin troll dəstəsinin fəal üzv və müavini F.Qəhrəmanlı sosial şəbəkə də İsveçdən olan sosialist və demokratların mütərəqqi qrupunun üzvü Evin İncirə istinadən bar-bar bağırır ki, Avropa Parlamenti Q.İbadoğlunun azad edilməsi barədə müzakirələr aparıb: "Dünən ard-arda Böyük Britaniya və Avropa Birliyi parlamentində Qubad İbadoğlunun məsələsinin müzakirəyə çıxarılması onu göstərir ki, rejimin inadı beynəlxalq reaksiyaları daha da təşviq edir. Əvvəlki reaksiyalara baxanda dünənki müzakirələr beynəlxalq etiraz prosesinin getdikcə böyüyünü göstərir. Bu prosesdə hakimiyyət yalnız Qubad İbadoğluna çəkdirdiyi fiziki və mənəvi əzabla təsəlli tapa bilər. Hikkə ağılı üstələyəndə nəticə də belə olur".

### Fuad Qəhrəmanlı özünü ifşa etdi

F.Qəhrəmanlı öncəgörənlik edərək bildirib ki, müzakirə edilən məsələ ilə bağlı AP qətnamə layihəsi dünən yayılıb və bu gün qəbul ediləcək. Qətnamə layihəsində Qubad bəyin dərhal azad edilməsi Azərbaycan hökumətindən tələb edilir. Müzakirələrdə çıxış edən AP deputatları həm Qubad İbadoğlunun saxta ittihamla həbsi və həm də Azərbaycanda insan haqları və siyasi məhbuslarla bağlı həyəcanlı çıxışlar ediblər".

F.Qəhrəmanlının "dünən müzakirə olunub, bu gün qətnamə qəbul ediləcək" deməsi onu göstərir ki, qətnamə layihəsinin qəbul ediləcəyi əvvəlcədən bəlli olub. Sadəcə, formal olaraq yığışıb haray-həşir salıb dağılışıblar. Yoxsa F.Qəhrəmanlı haradan bilir ki, layihə dünən müzakirə olunub, bu gün qəbul ediləcək? Eyni şivənliyi son vaxtlar Ə.Kərimlinin imicmeykeri qismində çıxış edən Gültəkin Hacıbəyli də bildirib: "Avropa Parlamenti, demək olar ki, yekdilliklə Azərbaycan hakimiyyətinə "dünya çapında tanınan nüfuzlu alim, professor Qubad İbadoğlunu öldürmə, azad et" çağırışını edir... Bu saatlarda ABŞ Senatında Azərbaycanla bağlı dinləmələr keçirilir. Qubad bəyin həbsi də gündəlikdədir. AP-nin qətnaməsindən sonra bir güclü zərbə də ABŞ Senatından gözləyirik. Qubad bəyə azadlıq!... Ümid edək ki, AB rəhbərliyi bu qətnaməyə həssas yanaşacaq və nəzərdə tutulan sanksiyaları tətbiq edəcək".

Əvvəla belə bir müzakirələr aparılmayıb. İkinci isə müzakirələr aparılsa və qətnamə qəbul edilsə nə dəyişəcək ki? Azərbaycan hüquq -mühafizə orqanları cinayət törədən şəxsi azad edəcək? Təbii ki, Q.İbadoğliu məhkəmə qarşısına çıxarılacaq və törətdiyi əməlә hüquqi qiymət veriləcək.

### Avropa Parlamentinin üzvləri ermənipərəst dairələrin təsiri altında olduqlarını nümayiş etdirdilər

Cinayət əməli törədən şəxsə görə, Azərbaycana qarşı qətnamə layihəsini müzakirə edən Avropa Parlamentinin üzvləri ölkəmizdə demokratik prinsiplərin möhkəmləndirilməsi, vətəndaş cəmiyyəti institutlarının daha da inkişaf etdirilməsi, insan hüquq və azadlıqları istiqamətində atılan ardıcıl addımlardan, qəbul olunan qərarlardan xəbərsizdirlər. Bu qərəzdən və Azərbaycanın dünyada güclü və qüdrətli dövlət olmasından əndişələnən qısqanclıqdan başqa bir şey deyil. Erməniperəst parlametarilərin təmsil olunduqları dövlətlərdə cinayət törədənlərə cəza verilmir? Və ya cinayət törədən şəxslər məhkəmə qarşısına çıxarılmır? Çoxsaylı faktlar mövcuddur ki, Fransada, Almaniyada, İsveçdə polis insanlara qarşı zorakılıqlar tətbiq edir, döyülür, təhqir edilir, haqsız yerə həbsxanalara salınırlar. 30 il Azərbaycanın torpaqları erməni işğalı altında qaldı. Tarixi abidələrimiz dağıdıldı, evlər viran edildi, minlərlə insan vəhşicəsinə qətlə yetirildi, Avropa Parlamenti susdu. Niyə? Çünki xristian təəssübkeşliyi onlara Ermənistana qarşı sanksiyalar tətbiq etməyə imkan vermədi. Azərbaycan ərazi bütövlüyünü bərpa etdikdən sonra başlayıblar regiondakı vəziyyətdən danışmağa. Diqqətçəkən biabırçı hal ondan ibarətdir ki, G,Hacıbəyli nə qədər Azərbaycan xalqına və dövlətinə nifrət edir ki, utanıb çəkinmədən deyir ki, "Ümid edək ki, AB rəhbərliyi bu qətnaməyə həssas yanaşacaq və nəzərdə tutulan sanksiyaları tətbiq edəcək". Hakimiyyət də kimdənsə narazı ola bilərsən, lakin bu dövlətinə düşmənçilik edib, xalqına bəlalar arzu etməyə əsas ola bilməz. Deməli sən ermənidən betər ermənisən. Ermənistandakı tülkü revanşistlər də Azərbaycan xalqına və dövlətinə fəlakətlər arzu edir və bu istiqamətdə iş aparırlar, sən və sənin kimlərdə. Harada qaldı yediyin çörək, içdiyin su. Erməniperəst yol tutduğun üçün haramın olsun- deməkdən başqa çıxış yolu qalmır.

**İ.ƏLİYEV**

---

MÜNASİBƏT

# "Göndərilən 40 ton un ermənilərin "humanitar fəlakət" təbliğatını darmadağın edəcək"

"Qarabağın sadə erməni əhalisini girov götürən bir qrup cinayətkar humanitar yardımı qəbul etməmək üçün əlindən gələni edir. Digər tərəfdən onların bir hissəsi, ilk növbədə Araik Arutyunyan yaxşı başa düşür ki, Azərbaycan Qırmızı Aypara cəmiyyətinin göndərdiyi 40 ton unu qəbul etməmək onların son aylar ərzində apardıqları "humanitar fəlakət" təbliğatını darmadağın edəcək". Bu fikirləri "Alyans" strateji araşdırmalar mərkəzinin sədri, siyasi ekspert Abutalıb Səmədov "Səs" qəzetinə açılamasında deyib.






Onun sözlərinə görə, dünya ictimaiyyətinin ağlı hələ başında olan hissəsi istər-istəməz soruşacaq: "sizin əgər dərdiniz qadınların və uşaqların ərzaqla təminatıdır, nədən Ağdam-Xankəndi yolu ilə gətirilən yardımı qəbul etmirsiniz?". Aydın olacaq ki, məqsəd əhalinin ərzaqla təmin olunması deyil: "Məqsəd separatizmin növbəti mərhələsini başlamaq, Qarabağ ermənilərinin Azərbaycan tərkibində yaşamaq istəmədiyini və bunun mümkünlüyünü həm ermənilərə, həm də dünya birliyinə inandırmaqdır. Ancaq dünyanın böyük gücləri artıq bunu qəbul etmir və nə Azərbaycan, nə də onlar buna heç vaxt imkan verməyəcəklər".

"Laçın sərhəd keçid məntəqəsi yaxınlığında da ermənilər şou yaradırlar. Azərbaycanın Xankəndinə göndərdiyi humanitar yardımın fonunda ermənilər bundan sonra hansı addımı atacaqlar" sualına cavab olaraq A.Səmədov bildirdi ki, Laçın sərhəd nəzarət buraxılış məntəqəsində artıq təqribən bir ay davam edən şouya yeni personajlar daxil edilməkdədir: "Fransadan gələn yardımı "aclıq keçirən" ermənilərə çatdırmaq missiyasını indi də Paris şəhərinin meri öz üzərinə götürüb. Ancaq Azərbaycan Prezidentinə zəng edən Makron necə öz əsaslandırılmış cavabını aldısa, yeni "şou qəhrəmanları" da alacaqlar. Laçın yolu ilə humanitar yardımın keçirilməsi məsələsinə yalnız Ağdam-Xankəndi yolu ilə gələn yardım qəbul olunduqdan sonra baxılacaq. Azərbaycan hakimiyyətinin mövqeyi dəyişməzdir və heç bir haray-həşir, heç bir təzyiq bu mövqeyə təsir göstərə bilməz.Xankəndində separatçılar arasında gərginləşən münasibətlərdə rus və sülhməramlı da zərər çəkməkdədir.

Bu nəticə etibarilə rus ilə separatçılar arasında dərin qarşıdurmanın genişlənməsinə gətirib çıxara bilər?Rusiya sülhməramlıları təmsil etdikləri dövlətin mövqeyindən çıxış etmək məcburiyyətindədirlər. Bu mövqe BMT Təhlükəsizlik Şurasının iclasında açıq şəkildə ifadə olundu. Bildirildi ki, Ağdam yolunun açılması və Yevlax şəhərində görüş barədə rusların iştirakı ilə əldə olunan razılığı erməni tərəfi pozub və bu davranış Laçın yolundan istifadəni mümkünsüz edib. Şübhə yoxdur ki, bu bəyanatı rəhbər tutmalı olan rus sülhməramlıları Ağdam-Xankəndi yolunun açılması istiqamətində Azərbaycanın atacağı addımlara dəstək verəcəklər. Bu addımların nə vaxt atılması barədə qərarın isə yaxın bir neçə gün ərzində verilməsi tamamilə mümkündür. Ancaq ola bilsin ki, bizim tərəfimizdən qəti tədbirlərin görülməsinə ehtiyac olmasın. ABŞ və müttəfiqlərinin Ermənistan hakimiyyətinin və sadə erməniləri girov saxlayan cinayətkar dəstənin pozuculuq hərəkətlərinə kəskin münasibət bildirməsi vəziyyətin qısa müddətdə nizama salınmasına imkan verə bilər. Ancaq böyük güclərin ermənilərə verəcəyi "qulaqburması" ləngimədən, dərhal reallaşmalıdır".

**GÜLYANƏ**

# Meksika mediası Qarabağda uydurulmuş humanitar "böhran" təxribatından yazır


MILENIO®

Desmitificando la Crisis Humanitaria Fabricada en Karabaj

Ciudad de México / 14.09.2023 01:12:08

Últimamente, la región de Karabaj en Azerbaiyán ha sido objeto de intensos debates y graves acusaciones tal como un "genocidio", incluso una crisis humanitaria fabricada por parte de la propaganda armenia a nivel

**Meksikanın nüfuzlu "Milenio" qəzetində "Qarabağda uydurulmuş humanitar böhran mifini ifşa edərək" sərlövhəli məqalə dərc olunub.**

Yazıda Ermənistanın Qarabağda böhran adı altında həyata keçirdiyi manipulasiya və qarayaxma fəaliyyəti pislənilir, Ermənistanın təxribatçı və riyakar siyasətinə, eləcə də ölkəmizin üzləşdiyi ikili standartlara diqqət çəkilir. Yazıda son vaxtlar Azərbaycanın Qarabağ bölgəsi ilə bağlı əsassız və qərəzli ittihamların, hətta "soyqırımı" uydurmasının səsləndirildiyi qeyd olunur, ərazidə "humanitar böhran" yaşanması ilə bağlı həqiqətdən uzaq erməni propaqandasının uğursuzluğa düçar olduğu bildirilir.

Yazıda beynəlxalq hüquq üzrə tanınmış ekspert Rodni Diksonun hesabatında Azərbaycanın Qarabağ bölgəsində soyqırımının baş verməsi ilə bağlı Luis Okamponun iddialarının əsassız və qüsurlu kimi qiymətləndirildiyi qeyd olunur. Həmçinin yəhudi ravvinlərin Ermənistanı Holokostdan və "soyqırımı" terminindən təbliğat kimi istifadəni dayandırmağa çağırdığı vurğulanır.

Qeyd olunur ki, bölgənin erməni əhalisinin alternativ yollar vasitəsilə qida əldə etmək imkanı olduğu halda, guya Laçın yolunun bağlanması nəticəsində aclıq şəraitində yaşamaları ilə bağlı xəbərlər yalnız təəccüb doğurur. Bunun Azərbaycanın ərazi bütövlüyünü bərpa etməsi ilə barışa bilməyən erməni diasporu və onun havadarlarının propaqanda siyasətinin bir hissəsi olduğu bildirilir.

Eyni zamanda, bir sıra dünya ölkələrinin humanitar məsələni siyasiləşdirmək əvəzinə Azərbaycanın təklif etdiyi Ağdam-Xankəndi yolundan istifadəyə çağırışların ermənilər tərəfindən müsbət qarşılanmadığı, beynəlxalq aktorların vasitəçiliyi ilə hər iki marşurutun açılması ilə bağlı əldə olunmuş razılıqdan isə Ermənistanın son anda imtina etdiyi bildirilir.

# Allah, şəfamızı ver...



**Nə olar, ay Allah, böyük Yaradan, bizim şəfamızı ver. Yalvarırıq sənə, qarşında diz çökürük, şəfamızı ver. Ay Allah, sən biz bəndələrinə rəhm et, keç günahımızdan, sağlamlığımıza qovuşdur, yazığıq...**

Bu nə dərd-bəla idi mübtəla olduq, İlahi? Hamımız mərəzə tuş olmuşuq. Görəsən nə etdik ki, Allah, sənin qəzəbinə uğradıq, sağlamlığımızı əlimizdən aldın.

Xəstələnmişik. Lakin bu xəstəlik hərəmizdə bir cür təcəssüm edir. Birimiz soyunuruq, birimiz geyinirik, birimiz saçımızı dibdən qırxırıq, birimiz gedib tük alıb təpəmizə əkirik. Allahın verdiyi əzalar kar salmır, birimiz gedib dodağımızı üç-dörd qat da böyüdürük, birimiz gedib qabırğalarımızı təxirə salırıq. Birimiz slikonlaşırıq, birimiz dolğulaşırıq... Birimiz göbəyimizi açırıq, birimiz budlarımızı bayırda qoyuruq. Birimizin başı göylərdə gəzir, birimiz başımızı aşağı salıb camaatla toqquşuruq. Birimiz qaçırıq, o birimiz yerimizdən tərpənmirik. Birimiz karıq, birimiz eşitsək də, karıq... Lakin bir çoxumuzun mərəzi eynidir, yersizik. O mənada yox ki, yaşamağa bir evimiz yoxdur, var. Hərəkətimiz yersizdir. Bu isə xəstəliyimizin son həddidir. Bəzi xəstəliklər necə ki, dövrlərə bölünür, yersizlik də bizim mübtəla olduğumuz mərəzin son mərhələsidir. Bu mərhələdə sonumuzun çatdığını hiss edib, övladımız üçün əlimizdən gələni edirik.

Məsələn, uşağımız universitetə girir, biz ona maşın alırıq. Niyə də almayaq? Böyük bir iş görüb bu uşaq. Hansı ki, nə borcudur, nə də vəzifəsi, amma edib. Biz də özümüzə borc sayırıq ki, uşağa bunun qarşılığında bahalı bir hədiyyə alaq. Bu hədiyyə də niyə kiçik olsun ki?.. Böyük əziyyətin hədiyyəsi də böyük olmalıdır da. Maşın alırıq. Maşını da şarlarla, rəngbərəng lentlərlə bəzəyib, nömrəsini də çıxarıb yerinə "tələbə qızım" yazıb aparıb qoyuruq BDU-nun qarşısına.

Ta bu maşını görən başqa uşaqların ilk dərs günü burnundan gəlir. Dərsin bitməsini gözləyir ki, evə qayıdıb desinlər ki, ay ata, ay ana, siz də özünüzü valideynmi sanırsınız? Belə isə filankəsin atasına da baxın, özünüzə də. Baxın, onda görəcəksiniz ki, valideyn necə olur. Bir qızın valideyni qədər yoxsunuz. Gedin onun universitet hədiyyəsinə baxın. Siz də bizə bir şalvar, bir ətək, bir dənə də köynək alıb, dediniz ki, təbrik edirik. Geyin, get universitetə. Bilmədik ki, bu, hədiyyə idi, yoxsa sizin valideyn borcunuz. Başımızı yamanca aldatdınız.

Valideyn də nə desin? Nə deyəcək axı... O da bu mərəzə tutulubsa, deyəcək ki, bir ayağım burda, biri gordadır. Durub gedəcək maşın bazarına, o da uşağına bir maşın alıb aparıb qoyacaq universitetin qarşısına. Nə olub ki, hələ məktəb yenicə açılıb da. Bu gün olmasın, sabah olsun. Yox, əgər pulu yoxdursa, onlarla bank var, kredit götürüb alacaq.

Bu xəstəliyə hələlik yoluxmayan bir-iki nəfər qalıbsa, çarə budur ki, onlar da məscidə üz tutub namaz qılıb, dua etməli, Allahdan şəfa istəməlidirlər. Deməlidirlər ki, Allah, sən bizim şəfamızı ver. Həm də yox yerdən ver...

***Mətanət Məmmədova***

# "Rusiya Ermənistana zərbə endirə bilər"

## *POLİTOLOQ ŞƏRH ETDİ*

"Rusiya ilə Ermənistan arasında vəziyyət günü-gündən pisləşir. Biz bunu artıq son iki ildə görürük, müşahidə edirik". Bunu SİA-ya açıqlamasında politoloq Elşad Həsənov deyib. Onun sözlərinə görə, KMT-nin Ermənistanda keçirilən tədbirində Paşinyan qətnaməni imzalamaqdan imtina etdi :"Bu ilin yanvarında Ermənistan KTMT-nin hərbi təlimləri keçirilməli idi, buna da Paşinyan icazə vermədi. Eyni zamanda, KTMT-də olan nümayəndəsini geri çağırıb, onu Niderlanda NATO qüvvələrinə nümayəndə göndərdi. Bütün bunlardan sonra KTMT-nin üzv olaraq ABŞ hərbçiləri ilə Ermənistanda hərbi təlim keçirir.

Artıq bu təlimlər başlayıb 11-dən 20-nə qədər davam edəcək. Bu isə Rusiyanın atıq səbir kasası daşırdı və Ermənistana yönəlik çox ciddi bəyanatlar səsləndirilir. Hətta KİV-lərdə belə informasiyalar yayıldı ki, "Vaqner"çlərin böyük dəstəsi Ermənistana gəlib orada yerli rusyönümlü müxalifət qüvvələri ilə birləşərək Paşinyanı devirəcək. Bundan əlavə Ermənistanın Baş naziri Nikol Paşinyan öz çıxışlarında müharibədə uduzmasını da Rusiyanın üzərinə yıxdı. Bu gün də Azərbaycan- Ermənistan sərhədində yerləşən Rusiya sülhməramlılarının Ermənistana heç bir kömək etmədiklərini bildirərək, artıq "Rusiya bizim təhlükəsizliyimizə qarant ola bilməyəcək", - deyə yekun fikir bildirdi. Bu da doğurdan da Rusiya - Ermənistan münasibətlərini həddindən artıq gərginləşib. Artıq Rusiyanın aqressiyası hiss olunur. Yəni, onlar Ukraynada müharibə apardığı şəraitdə yenə də imperiya siyasətinindən əl çəkmirlər. Gürcüstanı və Ermənistanı işğal edəcəklərini açıq tekslə bəyan edirlər. Bu da gələcəkdə Rusiya -Ermənistan münasibətlərində hansı həddində olacağını daha aydın göstərir. Ona görə də, Ermənistan təhlükəsizlik qaranti üçün Avropaya üz tutur və Fransa bu sahədə canfəşanlıq edir".

Elşad Həsənov onu da bildirib ki, ermənilər Amerikadan dəstək almağa çalışırlar: "Ancaq bir məsələnin xatırlatmaq lazımdır ki, Ermənistan Amerika üçün o qədər cəlbedici ricaq deyil. Burada Amerikanı cəlb edən heç nə yoxdur. Ermənistan da yaşayan ermənilərin həyatı onlar üçün o qədər maraqlı deyil. O cümlədən, məsafə də çox uzaqdır. Ermənistana da qoşun saxlayası deyillər. Təlimlər keçirməkdə məqsədləri Ermənistandan Rusiya qoşunlarının çıxarılmasına nail olmaqdır. Ümumiyyətlə, Rusiyanın Cənubi Qafqazdan çıxarılması məsələsini çoxdan qoyublar və bu baxımdan bu gün Paşinyana dəstək olurlar. Rusiya Ukrayna müharibəsində zəifləldiyinə görə, Cənubi Qafqazdan xüsusilə də, Ermənistandan hərbi bazasını çıxarar. Ancaq görünən odur ki, Rusiya indiki şəraitdə oradan qonşularını çıxarmaq istəmir və əksinə daha ağır aqressiv fikirlər səsləndirirlər. Ona görə də, Ermənistanda vəziyyət getdikcə daha da gərginləşəcək. Onu da qeyd edim ki bu da bizim xeyrimizə olan məsələlərdir. Daxildə biz Qarabağ məsələsini özümüz diplomatik yolla həll edəcəyik. Revanşist qüvvələr başa düşəcək ki, artıq onlara kömək edəcək qüvvələr yoxdur və ona görə də, təslim olmalıdırlar, ya da Azərbaycan ərazisini tərk etməlidirlər".

***Gülyanə***



MƏTANƏT

# Gəl, bu şəhərdə nəfəs al...

**Bu gün şəhər-səhər şəhərimizdə müşahidə etdiyimiz mənzərələr belə deməyə əsas verir ki, gəl, bu şəhərdə nəfəs al, görüm, necə nəfəs alırsan.... Hələ "hərəkət et", demirik. Çünki bu, yeni dərs ilinin başlanması, məzuniyyətlərin bitməsi ilə ümumiyyətlə, məhdudlaşır.**

Metroda, marşrut avtobuslarda yaranan mənzərəni yəqin ki, bu nəqliyyat növlərindən istifadə edənlərin hər biri görür və orada yaranan sıxlığı yaşayır.

Üç, üç ay yarım idi ki, bu şəhərdə sakitlik, seyrəklik hökm sürürdü. Çünki təhsil müəssisələri tətildə idi. İşləyən əhlinin əksəriyyəti isə məzuniyyətdə. Metroda da, marşrut avtobuslarda da, hətta yollarda belə görünən mənzərə bu şəhərin gözəlliyi üzərinə gözəllik qatırdı. Sakitlik hökm sürürdü bütün küçə və yollarda.

Lakin bilirdik ki, bütün bunlar müvəqqətidir. Çünki qarşıda yenidən hər kəs öz məktəbinə, işinə qayıdacaq və Bakıda bəlkə də dünyanın heç bir şəhərində olmayan sıxlıq yenidən yaranacaq.

Nədir bu sıxlığın səbəbi? Biz nə üçün bu şəhərə belə sitəm edirik? Heç bu barədə düşünən olurmu? Küçədə, metroda, yolda sanki bütün Azərbaycan Bakıdaymış kimi gəlir adama. Nə üçün? Bu sıxlığın səbəbi nədən qaynaqlanır?

Sıxlığın birinci qaynağı tələbələrdir. Çünki ali təhsil müəssisələrinin böyük əksəriyyəti paytaxtda yerləşir. Hər birində isə minlərlə tələbə təhsil alır. İkinövbəli təhsildə isə yollarda da, metroda da, marşrut avtobuslarda da təbii ki, sıxlıq olacaq. Çünki tələbələr dərsdən çıxır, dərsə gedir.

Bir neçə il öncə dövlətimizin başçısı ali təhsil müəssisələrinin paytaxtdan kənarda yerləşdirilməsi barədə sərəncam imzalamışdı. Yəqin ki, sərəncamın icrası ilə əlaqədar tədbirlər həyata keçirilir. Belə isə yaxın gələcəkdə sıxlığın ilkin səbəbi olan universitetlərin paytaxtdan kənarlaşdırılması bunun qarşısını alan başlıca səbəb olacaq.

Sıxlıq səbəblərindən digəri isə əhalinin kütləvi şəkildə Bakıya köçməsidir. Təəssüf ki, qəsəbə və kəndlərdə yaşayan soydaşlarımız ev-eşiklərini, həyət-bacalarını qoyub bu şəhərə axın edirlər. Səbəbi isə şəhərdə yaşamaqdır. Şəhərdə yaşamaq isə guya onlar üçün rahatlıqdır. Kənd işinin ağırlığının şəhərdə yüngül olmasıdır. Lakin bu sıxlığın özü bir əziyyət deyilmi? Şəhərin bu başından o başına gedib çıxmaq hansı kənd işindən yüngüldür, deyən olarmı? Belə isə, nə üçün gözəl kəndlərimizi tərk edib şəhərə üz tuturuq. Bol oksigenli, günəşli, yamyaşıl kəndlərimizi nə üçün bu şəhərə dəyişirik? Nə üçün torpaq kimi sərvəti iş yerini qoyub, şəhərə iş axtarmağa gəlirik? Minlərlə avtomobilin çirkləndirdiyi havanı ciyərlərimizə çəkib şəhərli oluruq?

Olmaz ki, açıq havada, zəngin oksigeni ciyərlərimizə çəkə-çəkə torpağımızı əkib-becərək? Məhsulumuzu bazara çıxarıb satmaqla pul qazanaq? Bu iş şəhərdəki işlərin hansından pisdir, deyən olarmı?

Sıxlığın bir başqa səbəbi isə nəqliyyatda işin düzgün qurula bilməməsidir. Gecikmələr, nəqliyyat vasitələrinin ərazilər üzrə düzgün bölünməməsi təbii ki, sıxlıq yaradacaq. Dəqiqələrlə gözlədiyimiz marşrut avtobuslara elə bu səbəblərdən zor-bəla ilə minə bilirik. Minməyinə minirik, lakin sərnişinlərlə nəfəsnəfəsə dayanmalı oluruq. Bu, metroda da belədir, avtobuslarda da.

Beləliklə, di gəl, bu şəhərdə nəfəs al. Bitdi, bu gündən nəfəs almaq bitdi. Sıxlıq tətili də, məzuniyyəti də çox keçməz ki, burnumuzdan fitil-fitil tökər. Yığdığımız enerji çox keçməz ki, zərrə-zərrə bədənimizdən bu sıxlığa qurban gedər.

Bəs nə etməli? Dözməli, nə edəcəyik ki?.. O zamana kimi dözməli ki, aid qurumlar bu sıxlığın fərqinə varacaq və bizlər üçün bir gün ağlamağa başlayacaqlar. Ya nəsib, ya qısmət, deyək, səbirlə gözləyək. Səbir gözəl nemətdir. Səbirli olanları Allah da sevər.

# Dünyamızın müdafiə sistemi dağılır:
# Fəlakət yaxınlaşır?

Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyi

*Yazı Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyinin maliyyə dəstəyi ilə "Ekologiya və ətraf mühitin mühafizəsi" istiqaməti çərçivəsində hazırlanıb*

## 16 sentyabr Beynəlxalq Ozon Təbəqəsinin Mühafizəsi Günüdür

ARAŞDIRMA

**Yer üzərində həyat atmosferdə olan mühafizə qatı sayəsində mümkün olmuşdur. Ozondan ibarət olan bu qat planetimizin canlı aləmini Günəşin zərərli ultrabənövşəyi şüalanmasından mühafizə edir. Lakin antropogen və texnogen təsirlər altında yarım əsrdən artıq bir müddətdə ozon qatının aramsız nazikləşməsi qlobal miqyasda təhlükə mənbəyinə çevrilmişdir.**

Ozon qatının vəziyyəti ilə bağlı elmi araşdırmalar həyəcan siqanlı verməyə kifayət edir. Rusiya alimləri apardıqları elmi araşdırmalara və müşahidələrə əsasən belə qənaətə gəliblər ki, artıq ozon qatında nazikləşmə kritik həddə çatıb və bəzi yerlərdə deşilmək üzrədir. Bir neçə il əvvəl Avropa Kosmik Agentliyi yaydığı hesabatında qeyd etmişdi ki, son 10 ildə atmosferdəki ozon təbəqəsi təxminən 0,3 faiz dağılıb, Antraktida üzərindəki ozon qatı rekord həddə zədələnib.




### Ozon qatı nədir və nədən ötrüdür?

Ozon tərkibində 3 oksigen atomu olan molekulyar qazdır. Təxminən 90%-ə qədəri atmosferin stratosfer qatındadır. Atmosferin aşağı qatı olan troposferdə 10%-ə qədər ozon var. Daha yüksək təbəqə olan mezosferdə ozonun miqdarı çox azdır. Maraqlıdır ki, hətta ən çox toplandığı strastosfer qatında belə ozon ümumi molekulların on milyonda bir hissəsini təşkil edir. Buna baxmayaraq stratosfer ozonu Yer üzərində həyat üçün müstəsna rol oynayır. Ozon molekulları Yer üzərində canlıları öldürücü ultrabənövşəyi şüalardan qorumaqla və temperatur rejimini saxlamaqla ümumi ekoloji tarazlıqda mühüm rol oynayır.

Atmosferdə ozonun yaranmasında Günəş şüaları mühüm və əsas rol oynayır. Havada olan oksigen molekulları dalğa uzunluğu 200 nm-dən kiçik şüaların təsiri ilə oksigen atomlarına parçalanır. Yaranmış oksigen atomları oksigen molekulları ilə reaksiyaya girərək ozon molekulunu əmələ gətirir. Yaranmış ozon yenidən daha yumşaq günəş şüalarını udaraq oksigen molekuluna və atomuna çevrilir. Beləliklə, atmosferdə və əsasən onun stratosfer qatında müəyyən miqdarda ozon toplanmış olur. Qlsa desək, Yer üzərində həyatın müqəddəratını qalınlığı cəmi 3 mm-ə bərabər ozon qalxanı müəyyən edir.

### Ozon qatının zəifləməsinin səbəbləri

"Nature" (Təbiət) jurnalında dərc olunan elmi məqaləyə görə, son dövrdə ozonun miqdarı 2 dəfədən çox azalıb. Bu nəticələr peyklər vasitəsilə aparılan ölçmələrlə təsdiqlənib. Məlum olduğu kimi, rekativ təyyarələrdən çıxan azot oksidləri ozonla katalitik reaksiyaya girib onu məhv edir. Alimlər soyuducu sistemlərin də ozon qatına ciddi zərər vurduğunu deyir. Belə ki, nəinki azot oksidləri, hətta karbohidrogenlər və xüsusilə də freon adlanan xlorlu karbohidrogenlər ozon olan mühitə düşdükdə günəş şüalarının təsiri ilə ozonun zəncirvari məhvi baş verir.

Bəzi alimlər ozonun azalmasını meteoroloji dəyişmələrlə, Günəşin aktivliyi ilə də izah etməyə çalışsalar da, vicdanlı alimlər bunun sırf antrpogen təsirlərlər, yəni insan fəaliyyətinin təsiri ilə baş verdiyini sübut edirlər. Çünki, bu proses məhz elmi-texniki fəaliyyətin kəskin artmasından sonra müşahidə olunub.

Ozon qatının yeyilərək nazikləşməsinin və nəhayət dağılmasının ən əsas səbəbkarı XFK - freonlardır. 1974-cü ildə Pol Kratsen uzun zaman xlorftor karbohidrogenlərdən istifadə edildikdə ozonun potensial tükənməsinin model analizlərinə aid tədqiqatlarını çap etdirib. Analitik təhlil bu birləşmələrdən istifadə edilməsi nəticəsində 40 km hündürlükdə ozonun qatılığının 1974-cü ilin səviyyəsindən 40% azalmasının mümkünlüyünü göstərmişdir.

Freonlar kimya sahəsində və məişətdə- soyuducularda, kondisionerlərdə, aerozol qablaşdırmalarda geniş tətbiq edilir. Ozonun miqdarının maksimum olduğu 20-25 km hündürlükdə freonlar günəşin ultrabənövşəyi şüalanmasının təsirindən parçalanaraq sərbəst xlor əmələ gətirir və ozonun təbii dağılması prosesini sürətləndirir. Bir xlor molekulu 10 minədək ozon molekulunu məhv etməyə qadirdir.

Hələ 70-ci illərdə freonların dünya üzrə istehsalını və onların atmosferə düşmə həcmini hesablayan mütəxəssislər belə qərara gəlmişlər ki, əgər onun istehsal sürəti azalmasa, onda ozon qatının deşilməsi qaçılmaz olacaqdır.

Burada ən təhlükəli hal odur ki, ozon qatının nazikləşməsini sürətləndirən əsas maddələr məhz uzunömürlü kimyəvi maddələrdir. Belə ki, XFK-11, XFK-12 və XFK-13 maddələrinin atmosferdə orta qalma müddəti müvafiq olaraq 50, 102 və 85 ildir. Deməli bu kimyəvi maddələrdən istifadəni hətta dayandırdıqda belə, onların ozon qatını aşılaması hələ uzun zaman davam edəcəkdir.







### Ozon qatının nazilməsi canlı aləmə necə zərər vurur?

Elmi-texnoloji inkişafın özü ilə gətirdiyi strateji təhlükələr SOS səviyyəsinə çatıb. Ozonun ümumi miqdarının azalması buzlaqların əriməsinə səbəb olur. Son 100 ildə dünyada orta illik temperaturun 1 dərəcəyə qədər artması və okean sularının səviyyəsinin 15 sm yüksəlməsi ciddi həyəcan siqnalıdır. Yaxın 20 ildə okean səviyyəsinin 60 sm qalxacağı və xeyli sayda sahil şəhərlərinin su altında qalacağı proqnozlaşdırılır.

Antarktidada tarixdə ilk dəfə 20 dərəcədən yuxarı temprtur qeydə alınıb. Sibirdə temprtatur 40 dərəcəyə çatıb. Son elmi məlumatlar əriməninin ehtimal olunandan 100 dəfə daha sürətlə getdiyini göstərdi. Qrenlandiya ildə 500 milyard ton buz itirir və qarın yağması buzun əriməsinin qarşısını ala bilmir. Hesablamalara görə, təkcə Qrenlandiyanın əriməsi dəniz səviyyəsini 7 metr qaldıra bilər, bu özlüyündə böyük fəlakətdir, bunun üzərinə Arktika və Antarktidanın da əriməsini əlavə etsək, vəziyyəti təsəvvür etmək çətin olmaz.

Artıq Arktikada çox böyük miqyasda buzlaqların əriməsi baş verib, əvvəllər atom buzqıran gəmilərin belə gedə bilmədiyi şimal qütbünə indi adi gəmilərlə getmək olur. Antarktida da bu proses gedir, buzlu qitədə orta illik temprtur getdikcə artır, nəhəng buzaqlar qırılaraq əriyib okena qarışır.

Ozon qatının nazilməsi və Günəşin zərərli ultrabənövşəyi şüalarının yerə daha çox keçməsi canlı aləmə ciddi zərər vurur. Statistik məlumatlar göstərir ki, insan üçün ozon qatının tükənməsinin ən ağır nəticəsidəri xərçəngi və bədxassəli melanoma xəstəlikləri, gözün kataraktası və göz büllurcuqlarının deformasiyasıdır. Son 30 ildə məhz ozon qatının nazikləşməsinin nəticəsi olaraq 30-dan çox təhlükəli xəstəliklər əmələ gəlmişdir.

BMT-nin rəsmi məlumatlarına görə, ozon qatının cəmi 1% azalması dünyada 100 min yeni katarakta hadisəsinin və 10 min dəri xərçənginin yaranması ilə nəticələnir. Bundan başqa, ozon qatının dağılması parnik effektinin güclənməsinə, bioresursların, xüsusilə su ekosistemlərinin depressiyasına, torpağın deformasiyasına, ətraf mühitin ümumi çirklənməsinə səbəb olur. Qlobal istiləşmə yerin atmosferində karbon qazı, azot oksidi və metanın miqdarının artması nəticəsində əmələ gəlir. Son əsrdə karbon qazının miqdarı 60% artıb. Bu qazlardan ibarət təbəqə Yerin üzərində toplanır və parnik effekti yaranır, isti havanın stratosferə çatmasına mane olur və nəticədə stratosfer soyuyur, bununla da ozon qatının nazikləşməsi davam edir. Son nəticədə yerin atmosferində havanın temperaturu artmağa başlayır. Meşələr məhv olur, səhralaşma sürətlənir, quraqlıq yaranır. Bütün bunlar isə canlı aləmə ciddi təsir göstərir.

### Dünya çıxış yolu axtarır, lakin

Ozon Qatının Qorunması Haqqında Qlobal Konvensiya 1985-ci ilin martında Vyana şəhərində qəbul edilib. Konvensiyaya görə, ölkələr insan sağlamlığını ətraf mühitin ozon qatının dağılması ilə əlaqədar təsirlərdən qorumağa dair öhdəliklər götürüblər. İndiyədək Vyana Konvensiyasına 175 dövlət qoşulub.

1994-cü ildə BMT-nin Baş Assambleyası 16 sentyabr tarixini "Beynəlxalq ozon təbəqəsinin mühafizəsi gün" elan edib. Azərbaycan ozon təbəqəsinin qorunması üzrə səyləri dəstəkləyir və beynəlxalq razılaşma əsasında qəbul etdiyi öhdəlikləri ardıcıl olaraq yerinə yetirməyə çalışır. Hökumət ozon qatının dağılmasına qarşı mübarizə strategiyası hazırlaynıb və görülən işlər qəbul olunmuş strategiya əsasında həyata keçirilir. Lakin təəssüf ki, iri sənaye dövlətləri ekoloji zərərlərin azaldılması üçün konkret işlər görmürlər. Hər ölkə təbiətin sərvətlərini daha sürətlə istismar etməyə, daha çox məhsul istehsal etməyə, daha çox gəlir əldə etməyə çalışır ki, bu da öz dəhşətli təsirlərini bütün dünyada göstərir.

Kapitalizm sistemi planetdə bütün canlı aləmin axırına çıxmağa rəvac verir. Lazımsız istehsal həcmi, vəhşicəsinə istehlak çılğınlığı, lüzumsuz rəqabət mühiti və çoxlu sərvət əldə etmək həyasızlığı dünyanı məhvə aparır. Qısası, öz evimizi, yəni dünyamızı şüursuzcasına dağıtmaq, özümüzlə bərabər bütün canlı aləmi də məhv etmək üçün əlimizdən gələn hər şeyi edirik.

Ultrakomfort həyat arzusu, fasiləsiz istehlak xəstəliyi, dəb və özünü başqalarından üstün göstərmək sindromu dünyanın axırına çıxır. Nnüfuzlu alimlərin fikrincə, bu qorxunc prosesi dayandırmaq və hər şeyi geri qaytarmaq üçün son imkanlar da itirilmək üzrədir.

BMT-də müzakirə aparılanda ki, qlobal istləşmənin sürətini azaltmaq və ekoloji böhranı önləmək üçün istehsal və atmosferə tullantılarının həcmi azaldılsın, əksər sənaye dövlətləri minimum azalmanı belə qəbul etmək istəmirlər. Bunun üçün Kioto protokoluna baxmaq kifayətdir. İri dövlətlər protokola qoşulmamaqla göstərdilər ki, onlar planetimizin xilasında yox, özlərinin müvəqqəti nüfuz və üstünlüyündə maraqlıdırlar. Kasıb ölkələr isə deyirlər ki, biz də sizin kimi yaşamaq istəyirik, ona görə də sənayeni azalda bilmərik.

Misal üçün, ABŞ təkbaşına dünya ekologiyasının korlanmasında 40 faizlik paya malikdir. Halbuki onun əhalisi dünya əhalisinin cəmi 3 faizini təşkil edir. Çin və Hindistan deyirlər ki, biz hərəmiz milyard yarım əhalini təmin etməliyik, insanlarımızın varlı ölkələrdəki kimi yaşamaq haqqı var, ya hamı eyni yaşayacaq, ya da biz heç nəyi ixtisar edən deyilik, yəni zərərli sənaye sahələrini və onun tullantılarını azaltmayacağıq.

Bax, dünyamız belə bir şüursuz vəziyyətdə dağılmağa doğru gedir. Bunun səbəbi, hələ də dünyamızda ədalətli və ağıllı insan cəmiyyəti qura bilməməyimizdədir. Nə qədər ki, insanlar sağlam təfəkkürə yiyələnə bilməyib, labüd bəşəri fəlakətdən sığortalanmaq mümkün olmayacaq. Artıq sonun başlanğıcındayıq...

***Elçin Bayramlı***
***Sağlam Cəmiyyət Hərəkatının rəhbəri***

SON SƏHİFƏ

SƏS

16 sentyabr
2023-cü il

# Sosial şəbəkə hesablarının oğurlanmasına qarşı hansı tədbirlər görülür?

## TEXNOLOQ AÇIQLADI

“Bir müddət əvvəl Azərbaycanda kütləvi halda istifadəçilərin ”WhatsApp” hesablarının bloklanması və ya müvəqqəti məhdudiyyət tətbiq edilməsi ilə bağlı məsələ gündəm oldu. ”WhatsApp” hesablarını təkrar aktivləşdirmək üçün qeydiyyat nömrəsinə gələn kodlar da problemə çevrilmişdi. Bir müddət sonra isə Elektron Təhlükəsizlik Xidməti ”WhatsApp”la bağlı açıqlama verdi ki, istifadəçilərin qeydiyyatdan keçdiyi zaman istifadə etdiyi mobil nömrələrə göndərilən kodlar ələ keçirilib. Hesablar dələduzların əlinə keçdikdən sonra isə bir sıra funksionallığı aktivləşdirməklə hesabların sahibləri tərəfindən bərpası proseduruna əngəl törədiblər. Bu məsələdən sonra hesabların təhlükəsizliyi məsələsi yenidən aktuallaşdı və hansı tədbirlərin öncədən görülməsi məsələsinə diqqət yönəldildi”. Bu sözləri SİA-ya açıqlamasında texnoloq Fərhad Mirəliyev deyib.



Onun sözlərinə görə, ”WhatsApp” təhlükəsizlik məqsədi ilə istifadəçini ilkin olaraq mobil nömrə vasitəsilə yoxlayır və qeydiyyata alır: ”Mobil nömrə və ora göndərilən OTP ilkin təhlükəsizlik tədbiridir. Amma gördüyü kimi müasir dünyamızda bu artıq kifayət etmir və əlavə təhlükəsizlik tədbirlərinin alınmasını şərtləndirir. İki mərhələli təsdiqləmə ”WhatsApp”-da təhlükəsizlik məqsədi ilə istifadəyə verilmiş funksionallıqlardan biridir. Aktiv etmək üçün hesab tənzimləmələrindən PİN kod təyin edilməsi tələb olunur. İstifadə müddəti boyunca PİN kod mütəmadi olaraq sorğulanır ki, istifadəçi bu kodu unutmasın. İki mərhələli təsdiqləmə aktiv edildiyi zaman ”WhatsApp” hesabının təkrar aktivləşdirilməsi təkcə OTP üzərindən deyil, həmçinin PİN kodu da zəruri edir”.

”WhatsApp” hesabınızın təhlükəsizliyini təmin etmək üçün aşağıdakılara əməl etmək tövsiyə edilir:

* Heç vaxt qeydiyyat kodunuzu və ya iki mərhələli təsdiqləmə kodunu başqaları ilə paylaşmayın.

* İki mərhələli təsdiqləməni aktivləşdirin və PİN kodu unutduğunuz halda e-poçt ünvanını təqdim edin.

* ”WhatsApp” hesabı aktiv olan cihazlarınızı mütəmadi olaraq yoxlayın. Şübhəli bir hal olarsa dərhal müdaxilə edin

* Mobil telefonunuza təhlükəsizlik doğrulaması təyin edin və telefonunuza fiziki giriş ola biləcək şəxsləri nəzarətdə saxlayın. Telefonunuza fiziki girişi olan biri sizin icazəniz olmadan ”WhatsApp” hesabınızdan istifadə edə bilər”,- deyə texnoloq əlavə edib.

*Ləman*

# UEFA Ermənistana intizam işi açdı!

UEFA Ermənistan Futbol Federasiyasına qarşı intizam işi açıb. Bu barədə ali futbol qurumunun rəsmi saytı məlumat yayıb. Ermənistan Futbol Federasiyası Avro-2024-ün seçmə mərhələsində İrəvanda Xorvatiyaya qarşı matçda qaydaların pozulmasına görə ittiham olunub. Sözügedən oyunundа stadionda ictimai keçidlər bağlanıb, qarşılaşma ərzində siyasi və təxribat xarakterli mesajlar verilib, həmçinin azarkeşlər protexniki vasitələrdən istifadə ediblər. Bundan əlavə, matç nəzərdə tutulduğu vaxtdan gec başladığı üçün Ermənistan millisinin baş məşqçisi Aleksandr Petrakov da cəzalandırıla bilər.




Qeyd edək ki, Xorvatiyaya qarşı görüşdə ermənilər dronla qondarma rejimin ”bayrağı”nı qaldırıblar. AFFA bunun ardından bəyanat yayıb və məsələ ilə əlaqədar UEFA-ya müraciət ediləcəyini bildirib. Xatırladaq ki, oyun Xorvatiya millisinin 1:0 hesablı qələbəsi ilə yekunlaşıb.


# “SƏS” qəzetinə abunə kampaniyası davam edir!




*«SƏS» QƏZETİNƏ ABUNƏ OLMAQ İSTƏYƏNLƏR AŞAĞIDAKI YAYIM ŞİRKƏTLƏRİ İLƏ ƏLAQƏ SAXLAYA BİLƏRLƏR*

1. Azərpoçt Poçtdaşıma Mərkəzi – 0125984955, 0552004544
2. Azərmətbuat Yayım MMC – 0124411991, 0124404694
3. Səma Mətbuat Yayım – 0125940252, 0503336969
4. Pressaİnform MMC – 0125115191, 0504560835, 0553156002
5. Qaya Mətbuat yayım – 0125667780, 0502352343
6. Qasid Mətbuat Yayım – 0124931406, 0124938343
7. F.Ş.Ruhid Hüseynov – 0124349301, 0505357898
8. Ziya LTD – 0124977696, 0503067744

1 nüsxə 1 aylığı 13.20 AZN

6 aylıq 79.20 AZN

1 illik 158.40 AZN

ABUNƏÇİLƏRİMİZİN XİDMƏTİNDƏYİK
Müraciət, şikayət, yazı, təbrik və başsağlıqlarınızı dərc etməyə hazırıq!


# “Oğlanlar ata tərbiyəsindən uzaq qalır”

*MÜNASİBƏT BİLDİRİLDİ*

“Oğlan uşaqları ata tərbiyəsindən uzaq qalır. Məktəbdə müəllimlərin hamısı qadındır. Hətta bir neçə məktəbdən maraqlanarkən bildim ki, idman və hərbi fənni tədris edənlər belə qadın müəllimlərdir. Məktəbdən gələn uşaq evdə də anasını görür. Ana seriala baxanda uşaq da baxır, ana kimləsə qeybət etdikdə o da şahidi olur və s. Atı atın yanına bağlasan həmrəng olmasa da, həmxasiyyət olur. Oğlan uşaqları artıq qadınların içində onların aurasına öyrəşir. Mənim qızım deyirdi ki, sinfimizdə ən çox xəbərçilik edənlər oğlanlardır. Əvvəllər qız uşaqları qorxudan, müdafiə məqsədilə hər şeyi müəlliməyə xəbər verərdi. İndi isə oğlanlar belədir”. Bu sözləri SİA-ya açıqlamasında astroloq Səbuhi Rəhimli deyib.



”Bu onu göstərir ki, oğlanlarda uşaq yaşlarından etibarən xarakter zəifləyir. Çünki ata işə gedir və evə yorğun gəlir. Uşağı ilə kifayət qədər maraqlana, vaxt keçirə bilmir. Daha çox qadınların ətrafında vaxt keçirdikləri üçün oğlanlarda kişi enerjisi azalır. Kişi o demək deyil ki, gestapoluq etsin və ya qışqırsın, əmr versin. Amma keçmişdən də gələn bir şey var ki, necə qadınların yanında hər söz danışılmır, abır-həya edilirsə, eyni şəkildə kişiyə də bir ayrı hörmət olunur”,- deyə o əlavə edib.

*L. Sərraf*

# Bu gün Bakıda 26 dərəcə isti olacaq

Sentyabrın 16-na gözlənilən hava proqnozu açıqlanıb. Milli Hidrometeorologiya Xidmətindən SİA-ya verilən xəbərə görə, Bakıda və Abşeron yarımadasında hava şəraitinin dəyişkən buludlu olacağı, arabir tutulacağı, əsasən yağmursuz keçəcəyi gözlənilir. Lakin gecəyə doğru bəzi yerlərdə yağış yağacağı ehtimalı var. Gecə və səhər bəzi yerlərdə zəif duman olacaq. Şimal-qərb küləyi əsəcək.4



Havanın temperaturu gecə 17-21° isti, gündüz 22-26° isti olacaq. Atmosfer təzyiqi 763 mm civə sütunu olacaq. Nisbi rütubət 55-65 % olacaq. Azərbaycanın rayonlarında əsasən yağmursuz keçəcəyi, lakin gündüz bəzi yerlərdə yağış yağacağı gözlənilir. Gecə və səhər bəzi rayonlarda duman olacaq. Mülayim şərq küləyi əsəcək. Havanın temperaturu gecə 15-19° isti, gündüz 23-28° isti, dağlarda gecə 3-7° isti, gündüz 7-12° isti olacaq.

*Baş redaktor:*
**Bəhruz Quliyev**

Ünvanımız:
Bakı şəhəri,
Üzeyir Hacıbəyov küçəsi, 66.
Şəhadətnamə:№ 022492
http://www.ses-news.az
http://www.sesqazeti.az
E-mail: ses@sia.az
“ƏLİNCƏ” AZƏRBAYCAN XEYRİYYƏ CƏMİYYƏTİNİN ORQANI.
QƏZET 1991-Cİ İL YANVARIN 11-DƏN ÇIXIR
Tel: 598-33-90
Faks: 493-11-62

Redaksiyanın mövqeyi ilə müəllifin mövqeyi üst-üstə düşməyə bilər.

Qəzet bazar və bazar ertəsindən başqa hər gün nəşr olunur

Tiraj: 4000